


**“Şuşa dünya turizminin gözü olacaq”**

12

# Prezident İlham Əliyevə
## “Liderlik Mükafatı” təqdim edilib



3

Prezident İlham Əliyev dünən Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib. Dünya Etnoidman Konfederasiyasının...



Səs

№ 043 (6484) 6 mart 2022-ci il. Qiymәti 60 qәpik

# Qida təhlükəsizliyi:
## Nə yeyirik, necə qorunuruq, hara gedirik?



15

# Operativ
## Qərargah növbəti yumşalma tədbirləri barədə qərar qəbul edib



Ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirlərinin növbəti mərhələsinin tətbiqi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul edilib. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan...

6

# 8 mart
## Beynəlxalq Qadınlar Günüdür



*Tariximizin mürəkkəb ictimai-siyasi proseslərində cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilən Azərbaycan qadını fəallığı ilə seçilmişdir. Gözəllik örnəyinə çevrilən Azərbaycan qadını ən çətin məqamlarda belə ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar...*

4

## “Azərbaycan fəal mübarizəyə qoşulan ilk dövlətlərdən oldu”




7

## İlk dəfə açıqlandı: Enerji içkiləri bu ölümcül xəstəliklərə yol açır!



16



## Sizə kimdən danışım: Azərbaycan qadınından...

5

O qadın ki, Azərbaycan xalqının tarixinin səhifələrinə öz qəhrəmanlığı, müdrikliyi, sədaqəti, namusu, gözəlliyi...



## Universitetlərə qəbul olmaq qaydaları niyə qarışıqdır?

11

Daha əvvəl imtahan vermiş və müvəffəqiyyətsizliyə rastlamış tələbələr üçün uğursuzluğun səbəblərini soruşduqda...

# "Biz, sözün əsl mənasında müttəfiqik, qardaşıq"

*Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib*

Prezident İlham Əliyev dünən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Prezident İlham Əliyev qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələri hər zaman müttəfiqlik səviyyəsində idi və müttəfiqlik xalqlarımızın qəlbindədir. Dövlətimizin başçısı qeyd edib ki, bu gün və bundan sonrakı illərdə daim Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri həm xalqlarımız üçün, həm bölgə üçün böyük önəm kəsb edəcək: "Çünki təkcə ikitərəfli formatda yox, bölgə təhlükəsizliyi üçün bizim əlaqələrimizin çox böyük əhəmiyyəti var. Türkiyə və Azərbaycan birgə səylərlə bizim bölgəmizdə gələcək inkişafı təmin edir, təhlükəsizliyi təmin edir, xalqlarımızın rahat həyatını təmin edir. Aramızda olan əlaqələr o qədər şaxəlidir ki, onların hər birini sadalamaq üçün çox vaxt lazım olacaq. Biz, sözün əsl mənasında müttəfiqik, qardaşıq və dünya miqyasında bizim əlaqələrimizə bənzəri olan əlaqələr yoxdur. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə canla, qanla bağlı olan ikinci ölkələr yoxdur. Bu, bizim böyük sərvətimizdir və bunu biz qoruyuruq, gücləndiririk, istənilən vəziyyətə hazırıq və hər zaman bir-birimizin yanındayıq".



Daha sonra Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxış edərək bildirib ki, Şuşa Bəyannaməsi, - həqiqətən də biz onsuz da təbii müttəfiqik, - bir millət, iki dövlətə yaraşan kimi oldu: "Cənab Prezident, bunu Sizin imzalarla, sadəcə, rəsmiləşdirdik. Bunun içərisindəki məsələlərin həyata keçirilməsi istiqamətində də biz qardaşlarımızla səylə çalışırıq. Təkcə xarici işlər nazirləri deyil, bütün qurumlarımız çalışır, konkret addımlar atmalıyıq. Sizin də söylədiyiniz kimi, bizim aramızda əlaqələrin güclənməsi yalnız iki ölkənin və xalqın əlaqələrinin güclənməsinə, ya da marağına deyil, bölgənin sabitliyi və əmin-amanlığına da çox faydası olacaq. Bu səbəbdən biz Şuşa Bəyannaməsində yer alan məsələləri bölgədəki ölkələrlə münasibətlərimizdə də əksini tapması üçün üçtərəfli, dördtərəfli formatlarda çalışacağıq".

Sonda Prezident İlham Əliyev Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

# "Qarabağ və Zəngəzurda yer üzündə cənnət nümunəsi yaradacağıq!"

*Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib*

Azərbaycan Prezidenti İlham Əliyev dünən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edib. Prezident İlham Əliyev görüşdə çıxış edərək diqqətə çatdırıb ki, yoxsulluğun azaldılması ilə bağlı hesab edirəm ki, biz bu qlobal bəlanın öhdəsindən uğurla gələ bildik və Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən beş faizdir: "Bu da onu göstərir ki, sərvətin bərabər şəkildə bölüşdürülməsi üçün biz enerji sektorundan qaynaqlanan gəlirlərdən müvafiq şəkildə istifadə edə bilmişik. Əlbəttə, iqtisadi islahatlarla, məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni mənzərə yaradacaqdır, çünki əhalimiz artır. Buna görə də məşğulluqla və əlbəttə ki, bununla birbaşa əlaqəli olan yoxsulluğun səviyyəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir."

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, işğal illəri ərzində ermənilər, erməni cinayətkar rejimi tərəfindən otuz il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə dağıdılırdı: "Bizim müharibəmiz azadlıq müharibəsi idi. Biz işğala son qoyduq. Biz torpağımızdakı şər qüvvələrə son qoyduq. Yəqin, sizin məlumatınız var ki, ermənilər həm də bizim dini abidələrimizi təhqir edib və dağıdıblar. 65 məscid tamamilə dağıdılmışdır və yerdə qalan iki məsciddə bütün dünya müsəlmanlarının hisslərini təhqir edərək onlar donuz və inək saxlayırdılar. Əfsuslar olsun ki, bütün bu işğal illəri ərzində beynəlxalq birlik buna susurdu. Bununla belə, sizin bildiyiniz kimi BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyası və digər mühüm beynəlxalq təşkilatlar tərəfindən bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul edilməsinə baxmayaraq, Ermənistana ciddi təzyiq göstərilmirdi. Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməmişdi. Hətta bəzi ölkələr təcavüzkarı və təcavüzün qurbanını tərəzinin eyni gözünə qoymağa cəhd edirdilər. Ermənilərin bu əraziləri uzun müddət ərzində öz nəzarəti altında saxlamalarının əsas səbəblərindən biri də bunlar idi. Biz şücaət, vətənpərvərlik və gücümüzü göstərməsəydik, bu işğal davam edəcəkdi. Çünki bizə belə gəlirdi ki, beynəlxalq təşkilatlar artıq özləri vəziyyətə uyğunlaşmışdı. Mənasız danışıqlarla qəribə turistlər qrupu kimi Minsk qrupu bizi ildə bir neçə dəfə ziyarət edirdi. İndi isə bu danışıqların yalnız arxasında Ermənistanın işğalın nəticələrini möhkəmləndirməyə çalışdığı sanki bir pərdə rolunu oynaması aydındır. Ermənilər bizim şəhər və kəndlərimizin adlarını dəyişirdi. Ermənilər dünyanın işğalı unutması üçün əlindən gələni edirdilər. Lakin Azərbaycan xalqı bunu unutmadı. Heç birimiz unutmadıq. Hamımız bir olaraq tarixi doğma vətənimizi azad etmək üçün canımızı qurban verməyə hazır idik və bu da baş verdi.



Hazırda bizim qarşımızda böyük çağırışlar var. Əminəm ki, bizim planlarımız barədə sizə məlumat verilib. Ola bilsin ki, bizim bərpa prosesimizin müəyyən nəzərəçarpan hissəsini görmüsünüz. Bu, böyük işdir. İndiyə qədər biz nə beynəlxalq təşkilatlardan, nə də dünyanın heç bir ölkəsindən beynəlxalq yardım olaraq bir dollar belə almamışıq.



Gördüyümüz bütün işləri öz hesabımıza edirik. Biz bunu etməyə davam edəcəyik. Lakin, əlbəttə qəribədir ki, torpaqların azad edilməsindən demək olar il yarım keçməsinə baxmayaraq, heç kim bizə kömək etməyə hazır deyil. Yalnız sözlər, başqa heç nə. Nə donor konfransı ilə bağlı ideyalar, nə də maliyyə dəstəyi var. Hətta məşhur qeyri-hökumət təşkilatları, məşhur beynəlxalq fondlar Qarabağ və Zəngəzurda baş verənlərə göz yumur. Bu, təəssüf doğurur. Bilirsiniz, biz əraziləri bərpa edəcəyik, Qarabağ və Zəngəzurda dediyim kimi yer üzündə cənnət nümunəsi yaradacağıq. Biz bunu nəyin bahasına olursa-olsun edəcəyik. Lakin düşünürəm ki, beynəlxalq təşkilatların, donor təşkilatların, böyük fondların bu etinasızlığı qəbuledilməzdir. Ümidvarıq, BMT öz qurumları və öz kommunikasiya kanalları vasitəsilə bizi dəstəkləyəcək, bu mühüm mesajı çatdıracaq ki, Azərbaycanın dəstəklənməyə ehtiyacı var. Biz sizin səfərinizi bu dəstəyin əlaməti hesab edirik. Əminəm ki, orada gördükləriniz barədə hesabat verəcəksiniz. Çünki eşitmək, bilmək, oxumaq ayrı, gəlib öz gözlərinizlə görmək isə ayrı məsələdir.

Həmçinin dünyanın erməni barbarlığı haqqında öyrənməyi vacibdir. Bu, cəzalandırılmalıdır. Biz müharibə zamanı onları elə cəzalandırdıq ki, onlar bunu heç vaxt unutmayacaqlar, lakin təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır. Əlbəttə ki, təzminat məsələsi var. Biz təzminat tələb edirik. Bu məsələni beynəlxalq arenada qaldırmaqda bizə kömək etmək üçün artıq beynəlxalq təsisatları, hüquqşünas qrupları cəlb etmişik. Beləliklə, planlar bundan ibarətdir. Düşünürəm ki, gələn ilin proqramı üçün biz əməkdaşlığımızı yaranmış bu mühüm reallığa uyğunlaşdırmalıyıq."

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı inkişaf proseslərinin, şəhər planlaşdırma və inkişaf konsepsiyasının onda dərin təəssürat hissi yaratdığını bildirib. O, Azərbaycanda qədimiliklə müasirliyin vəhdətinin şahidi olduğunu, tarixi binalar saxlanılmaqla müasir tikililərin ahəngdar formada inşa edildiyini, şəhər planlaşdırılması və urbanizasiyanın tərkib hissəsi olan şəhər nəqliyyat sisteminin və yol infrastrukturunun müasirliyindən məmnunluğunu bildirib.

# Prezident İlham Əliyevə
## "Liderlik Mükafatı" təqdim edilib






**Prezident İlham Əliyev dünən Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib. Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.**

Söhbət zamanı Bakıda keçirilən "Ənənəvi idmanın dirçəldilməsi" adlı 5-ci Beynəlxalq Etnoidman Forumunun əhəmiyyəti vurğulanıb, onun yüksək səviyyədə təşkil olunduğu bildirilib, xalqımızın ənənəvi idman növlərinə böyük marağının olduğu qeyd edilib.

Sonda Bilal Ərdoğan etnoidman növlərinin və oyunlarının dünya miqyasında tanınmasında, kütləviliyinin artırılmasında xidmətlərinə, ənənəvi idman növlərinin inkişafı üçün göstərdiyi liderliyə, fədakar yanaşmasına, idmana və idmançıya daim fəal dəstəyinə görə Dünya Etnoidman Konfederasiyasının Ənənəvi İdman Mükafatları çərçivəsində "Liderlik Mükafatı"nı Prezident İlham Əliyevə təqdim etdi.

# Mövlud Çavuşoğlu: "Türkiyə Azərbaycanın Ermənistanla əhatəli sülh razılaşması imzalamaq təklifini dəstəkləyir"

"Türkiyə Azərbaycanın Ermənistanla əhatəli sülh razılaşması imzalamaq təklifini dəstəkləyir. Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin bərpa olunmasını istəyir." Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib.




Mövlud Çavuşoğlu bildirib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı fəaliyyət Azərbaycanla koordinasiyalı şəkildə aparılır. Bu koordinasiya bundan sonra da davam etdiriləcək. Zəngəzur dəhlizinin reallaşması da çox önəmlidir: "Ukrayna hadisələrini narahatlıqla izləyirik. Ölkələrin ərazi bütövlüyünün güc yolu ilə dəyişdirilməsinin əleyhinəyik. Münaqişənin dayandırılması üçün səylərimizi davam etdiririk. Azərbaycan və Türkiyə hər iki münaqişə tərəfi ilə əlaqə saxlayan ölkələrdəndir. Bu münasibətlərdən istifadə edərək münaqişənin dayandırılması üçün səylərimizi davam etdiririk."

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov isə qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq, müttəfiqlik münasibətləri hər zaman sıx olub. "Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan torpaqlarımızın bərpasında Türkiyə şirkətləri fəal iştirak edirlər", - deyə nazir qeyd edib.

Ceyhun Bayramov həmkarı ilə görüşdə ölkələrimiz arasında iqtisadi münasibətlərin nəzərdən keçirildiyini söyləyib. Bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi ötən il 12 faiz artıb. Lakin potensial bundan qat-qat yüksəkdir.

Ukraynada yaranmış vəziyyət çox ciddi narahatlıq doğurur. Qurbanların sayı artır. Azərbaycan və Türkiyə fəal, məsuliyyətli mövqe sərgiləyir, münaqişə tərəflərinin liderləri ilə çoxsaylı danışıqlar aparır. Həmçinin məsələnin dialoq, sülh yolu ilə həllinə çağırış edir. Nazir əlavə edib ki, Azərbaycan münaqişənin beynəlxalq hüquqa əsaslanaraq dialoq çərçivəsində həllinin tərəfdarıdır. Nazir daha sonra qeyd edib ki, Ukraynanın müraciətinə əsasən, 24 saat ərzində Azərbaycan 5,5 milyon avro məbləğində humanitar yardımı Polşa üzərindən Ukraynaya çatdırıb.

# Rumıniya KİV-ləri Azərbaycandan yazır

Rumıniyanın aparıcı xəbər agentliyi "MediaFax" və digər nüfuzlu KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin və bu ölkənin energetika naziri Virgil-Daniel Popesku ilə görüşünü geniş işıqlandırıb. Bununla bağlı yayılan materiallarda görüşdə Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulanıb və bu baxımdan strateji tərəfdaşlığa dair imzalanmış birgə bəyannamənin önəmi qeyd olunub. Virgil-Daniel Popeskunun səfərinin ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə edilib.

Həmçinin diqqətə çatdırılıb ki, söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinə də toxunulub, bu münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb.



Știri online - știri de ultima ora si știrile zilei - Actualizat: 11:46, 3 martie 2022 | RSS | Publicitate

MEDIAFAX

Ultimele știri | News | Foto | Comunicate

Home Politic Economic Social Externe Sănătate Sport Life-Inedit Meteo Healthcare Trends Economia digitală Viața mea in fotbal Ieși pe plus Video

Home › Politic — Gabriel Pecheanu BUCUREŞTI, (02.03.2022, 15:32)

### Ministrul Energiei a avut o discuţie cu preşedintele Azerbaidjanului, Ilham Aliyev, despre Coridorul sudic al gazelor

Ministrul Energiei, Virgil Popescu, a discutat, miercuri, cu Ilham Aliyev, preşedintele Republicii Azerbaidjan, despre extinderea cooperării în domeniul energiei între cele două ţări.

Ministrul Energiei a avut o discuţie cu preşedintele Azerbaidjanului, Ilham Aliyev, despre Coridorul sudic al gazelor

„Am avut o discuţie cu Ilham Aliyev preşedintele Republicii Azerbaidjan. În cadrul conversaţiei s-a subliniat că relaţiile dintre cele două state se bazează pe principiile parteneriatului strategic şi, în acest sens, s-a remarcat importanţa Declaraţiei Comune privind Parteneriatul Strategic. Preşedintele Aliyev şi-a exprimat încrederea că vizita mea va contribui la extinderea cooperării în domeniul energiei între ţările noastre. Totodată, am discutat despre relaţiile dintre Azerbaidjan şi UE, iar preşedintele azer a subliniat dezvoltarea cu succes a acestor relaţii şi a remarcat că semnarea documentelor privind parteneriatul strategic între Azerbaidjan şi alte 9 state membre UE este un bun indicator în acest sens", transmite Virgil Popescu.

POLITIC
ONU: Un milion de persoane au fugit din Ucraina în ţările vecine într-o săptămână — Astăzi, 09:00
Premierul Nicolae Ciucă a avut o întâlnire cu Ursula von der Leyen. Au discutat despre situaţia din Ucraina — Astăzi, 07:58

URMĂREŞTE MEDIAFAX
Urmăreşte 34,4 K de urmăritori | YouTube 36K | Soundcloud

RECOMANDARI
A doua zi de război. Kievul, SUB ATAC. Primar: Urmează o noapte dificilă pentru oraş / NATO va continua să furnizeze arme... — Vineri, 22:00
De ce a renunţat România la Insula Şerpilor? Cum afectează cucerirea rusă dinamica în regiune — Vineri, 06:45
Bilanţul zilei. Ucraina a raportat numărul de persoane ucise şi rănite în prima zi a invaziei ruseşti. Insula Şerpilor a... — Vineri, 05:28

ZIARUL FINANCIAR

# Laçın
## istiqamətində itkin düşmüş hərbi qulluqçularımızın axtarışı davam edir

Laçın rayonu ərazisində yerləşən bir döyüş mövqeyindən digərinə hərəkət edən Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları - əsgər Məmmədov Fərid Əjdər oğlu və əsgər Abdullayev Firdovsi Mais oğlu hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək azıblar. Hərbi qulluqçularımızın tapılması məqsədilə yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin əlverişsiz olmasına baxmayaraq dərhal axtarış tədbirlərinə başlanılıb. Axtarış-xilasetmə tədbirlərinin nəticələri barədə əlavə məlumat veriləcək.



# 8 Mart

## Beynəlxalq Qadınlar Günüdür

***Tariximizin mürəkkəb ictimai-siyasi proseslərində cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilən Azərbaycan qadını fəallığı ilə seçilmişdir. Gözəllik örnəyinə çevrilən Azərbaycan qadını ən çətin məqamlarda belə ayıq-sayıqlığı, çevikliyi və düzgün qərar qəbul etmək bacarığı ilə hamını heyrətləndirib. Tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərmiş qadınlar müdrikliyi və işgüzarlığı ilə keçmişimizə parlaq səhifələr yazıblar. Sözünün bütövlüyü, ictimai fəallığı, zəhməti, isməti və zəkası ilə tariximizə isimlərini həkk ediblər.***

Artıq bir neçə gündən sonra 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edəcəyik. Tarixə nəzər salsaq, görərik ki, qadın hərəkatının tarixi 1857-ci ildə Nyu-York qadınlarının 12 saatlıq iş gününə etirazı ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 martın Dünya Qadınlar Günü kimi qeyd edilməsinə nail olub. Dünya ölkələrində olduğu kimi, 8 Mart Beynəlxalq Qadınlar Günü Azərbaycanda da geniş qeyd olunur. Ölkənin ictimai-siyasi və mədəni həyatında aparıcı qüvvəyə malik olan Azərbaycan qadını cəmiyyətdə böyük nüfuza malik olduğunu əməllərilə təsdiqləyib.

Müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı, məhz Azərbaycan qadını atmışdır. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, qadınların seçib-seçilmək hüququnu tanıyan, qadın-kişi bərabərliyini təmin edən ilk müsəlman ölkəsi olub. Məhz bu dövrdə milli qadın siyasəti dövlət statusu alıb. Bununla da, nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl, məhz Azərbaycanda qadına cəmiyyətin həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər: "XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq, ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı, məhz mənəviyyatında millilikə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır".

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrildi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan qadın siyasəti nəticəsində Azərbaycan qadını elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də, digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail oldu. Vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qadınlarımızın nailiyyətləri göz önündədir. Ölkəmizdəki demokratik mühit fitri istedadlarını və yaradıcılıq imkanlarını tam gerçəkləşdirməyə imkan verir. Təbii ki, mövcud mühitin formalaşmasında Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Azərbaycan qadını milli məfkurəyə sadiq qalaraq, bu gün də müstəqil Azərbaycanın güclənməsi naminə töhfələr verir.




Bu, bir həqiqətdir ki, 2000-ci ilin mart ayının 6-da Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında dövlət-qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərmanı ölkədə qadın siyasətinin gerçəkləşməsinə xidmət edən məsələlərdəndir. Təqdirəlayiq haldır ki, həmin sənəd 2001-ci ildə bütün dünya dövlətlərinə paylanılıb və bu sahədə ən yaxşı sənəd kimi qəbul olunub.

Bütün bunlarla yanaşı, Azərbaycanda qadın, ilk növbədə, ailə ocağının qoruyucusudur. Azərbaycan qadınına milli mənliyimizdə dərin kök salmış ənənələr məxsusdur ki, bu amil özünü tarix boyu göstərib. Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik. Bu keyfiyyətlər Azərbaycan qadınına xas xüsusiyyətlərdir. Zərifliyi və gözəlliyi ilə seçilən Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr verir. Azərbaycan qadınının əzəməti bu gün dünya ictimaiyyətinə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın simasında daha qabarıq təqdim olunur. Müasir dövrümüzdə ziyalılığın ali zirvəsində olan ölkənin Birinci Xanımı Mehriban xanım Əliyevanın Azərbaycan üçün gördüyü işlər ölkəmizin ictimai-siyasi və mədəni həyatında danılmaz amillərdir. Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrin dəstəklənməsi, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi və Azərbaycanın beynəlxalq nüfuzunun artmasına yönələn tədbirləri həyata keçirməklə böyük layihələrin müəllifinə çevrilib.

Yaradıcı düşüncə geniş layihələrin gerçəkləşməsi Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən Qədim Azərbaycanın mədəniyyətinə və milli dəyərlərinə yanaşmada yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Dünyanın ən nüfuzlu mükafatlarının daşıyıcısı olan Mehriban xanım Əliyeva gördüyü şərəfli işlərin müqabilində böyük nüfuza malikdir.

Bu gün Azərbaycan qadını öz əməli fəaliyyəti, dəyərləri ilə yüksəkdə dayanır və bu dəyərləri müqabilində alnıaçıq və fəxrlə 8 Mart Beynəlxalq Qadınlar Gününü qeyd edir. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, idmanda, hüquq-mühafizə orqanlarında və digər sahələrdə kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində, Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında fəal iştirakına maraq artıb. Ölkə həyatının bütün sahələrində qadınların fəallığı müşahidə olunur. Qadın siyasəti nəticəsində Azərbaycan qadını qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail olur. UNESCO-nun statistikasına görə, Azərbaycanda elmi tədqiqatçıların 57,1 faizinin qadınlardan ibarət olduğu göstərilir. Azərbaycan qadınlarına potensiallarını reallaşdırmaq üçün hər cür şərait yaradılıb.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı zamanı rəşadətli ordumuz bir-birinin ardınca düşmənə ağır zərbələr vuraraq təcavüzkar ölkənin siyasi-hərbi rəhbərliyini çıxılmaz vəziyyətə saldı. 44 gün davam edən müharibədə vətən torpağının erməni işğalçılarının təcavüzkar siyasəti nəticəsində işğal altında olan torpaqlarımız işğalçılardan azad olundu. Bu şanlı qələbəmizdə Azərbaycanın qəhrəman oğullarının rolu danılmazdır. Bu oğulları vətən üçün böyüdən bizim analardır. Vətən darda olanda öz oğullarını məğrurcasına müharibəyə göndərdilər. Buna dözdülər. Şəhid oğullarını qürurla, təmkinlə qarşıladılar. Analar böyükdür. Biz onların qarşısında baş əyirik. Azərbaycan qadınları ölkəmizin inkişafı, qlobal dünyada mədəni-mənəvi zənginliklərimizin yaşadılması, gənc nəslin milli məfkurə və dövlətçilik idealları sədaqət ruhunda tərbiyəsi üçün bundan sonra da fəallıq nümayiş etdirəcək.

Bayramınız mübarək olsun, ƏZİZ QADINLAR!

***Zümrüd BAYRAMOVA***

---

# "Azərbaycan qadınına diqqət hər zaman yüksək olub"



"8 Mart - Beynəlxalq Qadınlar Günü bütün dünyada olduğu kimi ölkəmizdə də rəsmi bayram günü kimi qeyd olunur. Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçıları kimi daim ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi,mədəni həyatında, elmi potensialının artırılması istiqamətində və dövlətin idarə olunmasında öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirmişdir. Ölkəmizin xanımları öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır. Qadınlar doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması və xalqa, cəmiyyətə layiqli övlad kimi yetişməsi naminə üzərinə düşən ağır yükü şərəflə daşıyırlar". Bunu SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdə qadın hüquqlarının qorunması, təbliğ olunması, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması dövlət siyasətinin ayrılmaz tərkib hissələrindən birinə çevrilmişdir: "Azərbaycanda dövlət qadın siyasətinin əsasını qoyan Ümummilli Lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli fərmanın icrası ilə əlaqədar olaraq mühüm işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva hər il bayram ərəfəsində qadınlara təbrik ünvanlayır, dövlət başçısı Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

Azərbaycan qadınının nüfuzunun həm ölkədə, həm də beynəlxalq aləmdə layiqli nümunələrindən biri də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Onun hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər buna əsl örnəkdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra dövlət qadın siyasətinin davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artmışdır. Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi, intellektual-mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. 1998-ci il sentyabrın 25-də keçirilmiş Azərbaycan qadınlarının ilk qurultayı dövlət qadın siyasətinin tarixində mühüm hadisədir. 1998-ci ildən etibarən hər beş ildən bir Azərbaycan qadınlarının qurultayları keçirilir. Bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar və böyük hadisələrdən biri kimi qiymətləndirilir."

***Arzu Qurbanzadə***

# Sizə kimdən danışım: Azərbaycan qadınından...

**O qadın ki, Azərbaycan xalqının tarixinin səhifələrinə öz qəhrəmanlığı, müdrikliyi, sədaqəti, namusu, gözəlliyi, ən əsası isə yüksək analıq keyfiyyəti ilə elə bir salnamə yazıb ki, illər, əsrlər sonra da o səhifələri hər vərəqlədiyimizdə qürur duyur, fəxr edirik.**



*Mətanət MƏMMƏDOVA*
*Əməkdar jurnalist*

Sizə Azərbaycan qadınından danışıram. İsmət, namus, qeyrət təcəssümü ilə başımızın tacı olan qadınlardan. Sədaqəti, zəhmətkeşliyi ilə həyat yoldaşına bir ömür arxa, dayaq, dost, yoldaş olan qadından. Abır, həya mücəssəməsi ilə ata-ana, qayınana-qayınata yanında yemək yeməyə utanan, övladını qucağına almayan qadından. Balası göz nuru, göz bəbəyi olan, gecələri yuxusuz, lakin əvəzsiz məhəbbətlə beşik yırğalayan qadından. Göz nurunun bir iməyinə, bir addımına, bir kəlmə sözünə, cümləsinə sevincini yumruğu boyda ürəyindən çıxarıb dünya ilə bir edən qadından... "Laylay dedim yatasan, qızılgülə batasan, qızılgülün içində şirin yuxu tapasan" laylası ilə gözlərimizin xumarı, qulaqlarımızın nənnisi olan qadınlardan. Bir narahatlığımız olanda, azacıq xəstələnəndə "sənə gələn mənə gəlsin",- deyib göz yaşı tökən, başımızın üstündə dan yerini dualarıyla ağardan qadından...

Evlərimizin bəzəyi qadınlardan söhbət açmaq istəyirəm. Ana çağırdığımız, varlığıyla var olduğumuz, ocağımızın istisi, işığına, nuruna yığışdığımız qadınlardan danışmaq istəyirəm sizə. Başımızın tacı analardan, qucağı dünyanın ən təhlükəsiz ünvanı, hüzur məskəni olan analardan... Sirr yerimiz, söz yerimiz, gözlərimizlə bir-birimizianladığımız analardan danışmaq istəyirəm.

Kimdir Azərbaycan qadını? Şücaətini, qəhrəmanlığını, hökmdar, hətta sərkərdə, döyüşçü, diplomat olmaq qabiliyyətini çoxəsrlik tariximizə yazmağı bacaran, kişilərədən ağlı-zəkası, hünəri ilə heç də geridə qalmayan qürur yerimizdir Azərbaycan qadını. Kişilərlə qoşa yay çəkən, qurşaq tutub güləşən Burla xatun, Banu Çiçək, Selcan xatundur, ağıl-zəkası ilə tarixə iz salan hökmdar Tomris anadır Azərbaycan qadını. Hünər rəmzi olan Mehrican, Möminə xatunlardır, Nigar, Tuti Bikə, Nüşabə, Həcər xanımlardır, Gültəkinlər, Salatınlar, Arəstələrdir Azərbaycan qadını.

Ziyalılığı ilə qürur duyduğumuz, mərhəmətli həkim, qayğıkeş ana, ümummilli liderimizə özünün də söylədiyi kimi gözəl həyat yoldaşı olan Zərifə xanım Əliyevadır Azərbaycan qadını. Müasir dövrümüzdə Azərbaycan qadınının dünyada təcsilçisi, sözünü deyən, hüquqlarını qoruyan, müstəqil ölkəmizin inkişafında Prezident İlham Əliyevin ən yaxın köməkçisi olan, gözəl ana, sədaqətli həyat yoldaşı, xalqımızın milli-mənəvi dəyərlərinin qoruyucusu, onu dünyaya tanıdan, yaşadılması üçün misilsiz xidmətləri olan, xalqının layiqli övladı Mehriban xanım Əliyevadır Azərbaycan qadını. Adlarını sadaladığım bütün bu qadınların timsalında ailəsinin, xalqının, dövlətinin, cəmiyyətin inkişafı naminə kişilərlə birlikdə unudulmaz xidmətləri olanlardır Azərbaycan qadını.Elə bu mənada ulu öndər Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı fikirləri də olduqca qiymətlidir: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi Vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər".

Azərbaycan qadını həyata böyük şəxsiyyətlər bəxş etmiş anadır. Övladına südü ilə Vətən sevgisini aşılayan, onu vətənpərvərlik ruhunda böyüdən, torpağa sədaqət, bağlılıq dərsi verən qadındır. Azərbaycan qadını Vətən, torpaq uğrunda şəhiddir. Cəbhədə özünü yaralıların harayına yetirib gülləbaran altında qorxmazlıq nümayiş etdirən, müharibənin həqiqətlərini dünyaya çatdırmaq üçünözünü odun-alovun içərisinə atıb şəhid olan qadındır. Eyni zamanda Azərbaycan qadını şəhid anasıdır. Qorxmaz, əzmkar sinəsinə bala dağı çəkilən, lakin torpağının-namusunun xilaskarı olan balası ilə qürur duyan anadır. Balasını ağlarkən bir gözü də gülən qadındır. Çünki Vətən sevgisi Azərbaycan qadını üçün bütün sevgilərindən öndədir. Azərbaycan qadını şəhid arvadıdır. Bir üzü qız, bir üzü gəlin qadındır. Saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb ömrünü övladları yolunda şam edən qadındır.

Azərbaycan qadını siyasətçi, iş adamı, dövlət məmuru, deputat, müəllim, həkim, mühəndis, iqtisadçı və digər sahələrin mütəxəssisi, ölkənin inkişafında özünəməxsus yeri olan vətəndaşdır. Ailəsinin, evinin qayğıları ilə bərabər, cəmiyyətin tərəqqisini düşünən, bunun üçün vaxtını bölən, rahatlığından keçən, gecəli-gündüzlü çalışan, zəhməti ilə xalqına səmərə verən qayğıkeşdir. Dövlətimizinbaşçısı Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Biz hamımız dinamik inkişaf edən ölkəmizin irimiqyaslı iqtisadi layihələrin iştirakçısı kimi əldə etdiyi yüksək göstəricilərlə haqlı olaraq fəxr edirik. Bu tərəqqinin bəhrələri respublikamızın hər bir guşəsində özünü aydın hiss etdirir. Həmin nailiyyətlərdə Azərbaycan qadınlarının böyük rolu danılmazdır. Qədim zamanlardan bəri Vətənə və torpağa sədaqəti ilə seçilən qadınlarımız milli məfkurəyə sadiq qalaraq bu gün də suveren Azərbaycan Respublikasının güclənməsi naminə töhfələr verirlər. Onlara xas olan işgüzarlıq, müdriklik, yüksək daxili mədəniyyət və xalqımızın yüzillər boyu təşəkkül tapmış zəngin milli-mənəvi sərvətlərinə sədaqət müasir Azərbaycan qadınının ictimai həyatımızda mövqeyini və simasını müəyyən edir".

Zəhmətsevər, ictimaiyyətçi, işgüzar qadınlarımız özlərinə layiq şəkildə hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında qadınların kişilərlə eyni hüquq və azadlıqlara malik olmasının təsbit edilməsi, ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 2000-ci ildə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanın imzalanması, ardınca qadınların cəmiyyətdəki rolunun artırılması məqsədilə onların yüksək vəzifələrə irəli çəkilməsi respublikamızda dövlət qadın siyasətinin həyata keçirilməsində yeni mərhələ açdı.Həmçinin 2000-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq edildi. Milli Fəaliyyət Planında dövlət tərəfindən qadın probleminə daim diqqət yetirilməsi, qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının hazırlanması öz əksini tapdı.

Respublikamızda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət qadın siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Dövlət başçısı qadınların cəmiyyətdəki roluna, onların dövlət idarəçiliyində təmsil olunmalarına diqqətlə yanaşır. 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmışdır. Hazırda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2006-cı ildə Azərbaycan Respublikasının Milli Məclisi "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul edib. 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbulu isə qadın məsələlərinin hər zaman dövlətimizin diqqətində olduğunun təzahürüdür. Ailə Məcəlləsində qızların nikah yaşının 17-dən 18-ə qaldırılması ilə bağlı möhtəşəm dəyişiklik qadınlara diqqətlə yanaşı, onlara böyük sayğı ilə yanaşmanın göstəricisidir.

Ölkəmizdə qadın hərəkatının formalaşmasında, onların hüquqlarının qorunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın xidmətləri xüsusi əhəmiyyətə malikdir. "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən",-deyən Azərbaycanın birinci xanımı humanistliyi, insanpərvərliyi, insan amilinə verdiyi dəyərlə, müasir yanaşma tərzi ilə öz intellektual enerjisini cəmiyyətin inkişafına yönəltmiş, Azərbaycan qadınının fəal ictimai həyatı üçün yeni səhifə açmışdır. Bu səhifədə hər bir Azərbaycan qadını öz dəyərini görür. Arxasında, hüquqlarının müdafiəsində Mehriban Əliyevanı, onun müasir dünyagörüşdən, geniş erudisiyadan irəli gələn modern baxışını, yüksək təəssübkeşlik xarakterini görür.

Hər birimizin əzizi-anası, nənəsi, bacısı, xalası-bibisi olan Azərbaycan qadını haqqında olan söhbətimi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan qadınını xarakterizə edən dəyərli fikirləri ilə tamamlayıram. Ulu öndər deyirdi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır. Ancaq bununla bərabər, əsrlər boyu Azərbaycan qadınının üzərinə böyük zəhmətlər düşmüşdür. O zəhməti də qadın həmişə mərdliklə, cəsarətlə çəkmişdir və heç vaxt bu zəhmətdən incimişdir."




## Konfrans İtaliya mətbuatının geniş diqqət mərkəzində olub

Xocalı soyqırımı qurbanlarının anılmasının 30-cu ildönümü çərçivəsində 1 mart 2022-ci il tarixində İtaliya Senatının "Caduti di Nassirya" mətbuat konfransı zalında "Etiraf yolu ilə barışıq: sülh quruculuğu və keçid ədaləti" mövzusunda keçirilmiş konfrans İtaliya mətbuatının geniş diqqət mərkəzində olub. SİA xəbər verir ki, İtaliya Senatının rəsmi televiziyası və youtube kanalı vasitəsilə canlı olaraq yayımlanmış konfransın tam videoyazısı İtaliyanın "Radio Radicale" radiosunun internet səhifəsində yerləşdirilib.

"Agenzia Nova" xəbər agentliyi və "Kmetro0", "Notizie Geopolitiche" kimi analitik və xəbər portallarında tədbirlə bağlı geniş yazılar dərc olunub.

"Askanews" xəbər agentliyinin konfransla bağlı hazırlayaraq yaydığı videoreportaj İtaliyanın çoxsaylı nüfuzlu kütləvi informasiya vasitələri, o cümlədən "Il Sole 24 Ore", "il Tempo", "Libero Quotidiano" kimi qəzetləri, habelə "Affari Italiani", "il Dolomiti", "Notizie Yahoo", "Notizie Tiscali", "Virgilio", "Today.it", "Notizie.it", "MSN", "Quotidiano Nazionale", "Timgate","Socialboost", "Dailymotion", "Vistosulweb", "Gruppo Corriere", "Corriere di Siena" kimi analitik və xəbər portalları tərəfindən də yayılıb.

Məlumatlarda konfransın İtaliya Senatının "İrəli, İtaliya" partiyasından olan üzvü, İtaliyanın Mərkəzi Avropa Təşəbbüsü Parlament Assambleyasındakı parlament nümayəndə heyətinin vitse-prezidenti, senator Urania Papatheunun təşəbbüsü ilə İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsi ilə birgə təşkil olunduğu bildirilib. Tədbirdə senator Urania Papatheunun, İtaliya Deputatlar Palatasının üzvü, İtaliya-Azərbaycan Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, deputat Rossana Boldinin, İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsinin sədri professor Antonio Stanqonun, Avropa Müsəlmanlarının Sosial Birlik Təşəbbüsünün Baş katibi, Danimarka İnsan Hüquqları İnstitutu şurasının üzvü Başi Qureyşinin, Vicdan azadlığı Uğrunda Dərnəklərin və Fərdlərin Koordinasiyasının prezidenti Thierry Valleninvə Bursa Uludağ Universiteti rektorunun müşaviri, Universitetin beynəlxalq akademik münasibətlər üzrə əlaqələndiricisi, ATƏT-in keçmiş şəxsi nümayəndəsi, din və geosiyasət üzrə professor Bülent Şenayın səsləndirdiyi fikirlərə məlumatlarda yer verilib.

Konfransla bağlı yayılmış məlumatlarda Xocalı soyqırımının acı nəticələri barədə ətraflı məlumatlar verilib, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməsinə baxmayaraq Xocalıya ədalətin hələ tam bərpa olunmadığı, tədbirin məqsədinin etiraf, dialoq və barışıq yolu ilə insanlara Xocalı faciəsinin kölgəsini aradan qaldırmağa kömək etmək üçün güclü beynəlxalq vasitəçiliyi araşdırmaq olduğu qeyd edilib. Bu xüsusda, yazılarda "Barışıq üçün etiraf et" təşəbbüsününəhəmiyyəti və təşəbbüsün Xocalı soyqırımının Ermənistan tərəfindən etirafı, azərbaycanlılarla ermənilər arasında birbaşa dialoqa yardım edilməsi, münaqişə ilə bağlı acı xatirələri aradan qaldıraraq birlikdə Cənubi Qafqazda barışıq və dayanıqlı sülh yollarının tapılması kimi məqsədlərinə nail olmaq üçün Xocalı faciəsinin 30-cu ildönümü ili ərzində davamlı olaraq fəaliyyət göstəriləcəyi qeyd olunub.

Məlumatlarda konfransın sonunda "Barışıq üçün etiraf et" təşəbbüsünü dəstəkləyən Avropa təşkilatlarının Koalisiyasının elan edildiyi, habelə çıxışçılar, tədbirdə iştirak edən bir sıra italyan parlamentarların və digər iştirakçıların rəmzi olaraq Roma Bəyannaməsi adlanan "Barışıq üçün etiraf et" təşəbbüsünün beynəlxalq koalisiyası Bəyannaməsini imzaladıqları bildirilib.

# YAP-ın VII qurultayı partiyanın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoyub

**Partiyamız bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir**



*Muxtar NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri*

Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının nüfuzu davamlı olaraq artır. Sıralarında 800 mindən çox vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi bunun bariz nümunəsi, real təsdiqidir.

Ulu Öndər Heydər Əliyev ideologiyasının tərənnümü və tarixi reallığı əsasında yaranan və artıq 30-cu ildönümünə doğru inamla addımlayan YAP bu gün də öz uğur və tərəqqi sözünü deməkdədir. Məhz Azərbaycan xalqının və dövlətinin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, xalqımızın həmrəyliyi və dönməzliyi sayəsində, ölkəmizin ən çətin məqamlarında yaranan YAP bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir.

**Prezident İlham Əliyev: "Biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik"**

Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".

Eyni zamanda, qeyd edə bilərik ki, YAP Azərbaycanın milli tərəqqinin yeni mərhələsinə qədəm qoyub. Ölkəmiz mühüm strateji təklif və təşəbbüslərlə çıxış edir, qətiyyətli mövqeyini davam etdirir və bütün bunlar qalib Azərbaycanın yaratdığı yeni geostrateji reallıqlar fonunda baş verir. Həmçinin həmin nailiyyətlər regionda, türk dünyasında və qlobal miqyasda yüksək dəyərləndirilir.

**Qlobal problemlərlə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsində YAP-ın rolu böyükdür**

Yeri gəlmişkən, Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunmağı da bu baxımdan əlamətdardır. Bu, cənab İlham Əliyevin müdrik Lider, qətiyyətli dövlət başçısı və Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi ilə Qarabağın işğaldan azad edilməsinin, Onun qlobal problemlərlə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələrinin, Türk Şurası, BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ümumbəşəri xarakter daşıyan təşəbbüslərinin dünya miqyasında olduqca yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb

Ümumiyyətlə, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasından, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Bu baxımdan, xüsusilə qeyd etmək olar ki, tarixi Qələbəmizdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın ötən ilin 5 mart tarixində baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.

**Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir**

Ümumxalq partiyasına çevrilən YAP-ın fəaliyyətinin səmərəliliyini təmin edən vacib faktorlardan biri də partiyanın davamlı islahatlar çərçivəsində təkmilləşməsidir. Xüsusilə, partiyanın qurultaylarında qəbul edilən qərarlar YAP-ın fəaliyyətində yeni keyfiyyət dəyişikliklərini təmin edən çox mühüm amildir. Xüsusi vurğulamaq olar ki, Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP-ın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini, 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, partiyamızın və dövlətimizin daha da güclənməsinə xidmət edən şərəfli, həmçinin mötəbər hadisədir. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin müavini statusunda gördüyü işlər dövlətçilik maraqlarının qorunması və milli həmrəyliyin gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir və şübhəsiz ki, Onun birinci müavin kimi fəaliyyəti ölkəmizin və partiyamızın daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə imkan yaradacaqdır. Şübhə yoxdur ki, Yeni Azərbaycan Partiyası yeni reallıqlar fonunda dövlətin qətiyyətli siyasətinə, xalqın həmrəyliyinə paralel olaraq öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə Azərbaycanın növbəti tarixi nailiyyətlər qazanmasına və yeni strateji zirvələr fəth etməsinə layiqli töhfəsini bundan sonra da verəcəkdir.



## Ölkəmizdə buğdanın qiyməti bahalaşacaqmı?

*EKSPERT AÇIQLADI*

"Son dönəmlərdə Avropa bazalarında buğdanın qiyməti son həddə çatıb. Bu hadisə 2020-ci ilin ortalarında da baş vermişdir". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov bildirib.

Onun sözlərinə görə, bunun səbəbi onunla bağlı idi ki, dünya bazarında bu istiqamətdə məhsuldarlıq aşağı səviyyədə idi: "Buğda rezervlərində çətinliklər yaratmışdır. Eyni zamanda buğda idxalçısı olan ölkələrdə daşınma xərclərinin və digər xərclərin artırılması halları baş verdiyi üçün qiymətlərdə artım yaranmışdır. Düşünürəm ki, son dönəmlərdə Avropa bazarında buğdanın qiymətinin artması Azərbaycana bir o qədər də təsir etməyəcək. Azərbaycan idxal etdiyi buğdanın böyük bir hissəsini Rusiyadan, digər bir hissəsini isə Qazaxıstandan ixrac edir. Rusiya ilə Azərbaycan arasında bir neçə gün öncə Müttəfiqlik Bəyannaməsi imzalanmışdır. 1997-ci ilin müqaviləsi yeniləndi və bir çox istiqamətdə iqtisadi-siyasi, hərbi sahələrdə əməkdaşlığın yenidən əsası qoyuldu. Bu istiqamətdə Rusiya tərəfindən Azərbaycana buğda idxal edilməsində hər hansı bir çətinlik yaranmayacaq. Ona görə düşünürəm ki, ilin sonuna qədər buğdanın qiymətində hər hansı bir nəzərə çarpan bahalaşma müşahidə olunmayacaq".

*Abutel İlhamqızı*

## Operativ Qərargah növbəti yumşalma tədbirləri barədə qərar qəbul edib

Ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirlərinin növbəti mərhələsinin tətbiqi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul edilib. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Qərara əsasən, 2022-ci il martın 6-dan etibarən:



aşağıdakılara icazə verilir:

- dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbuluna;
- dini ritual xidmətlərinin, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkilinə və keçirilməsinə;
- bütün kütləvi tədbirlərin, o cümlədən idman tədbirlərinin keçirilməsinə;
- ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadəyə;
- masaj xidmətlərinin göstərilməsinə;
- sərnişinləri qarşılayan və yola salan şəxslərin hava limanının terminalına girişinə.

aşağıdakı məhdudiyyətlər ləğv edilir:

- mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrlar və konfrans zallarının, istirahət və əyləncə məkanlarının, həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisində olanlar da daxil olmaqla), habelə iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti ilə bağlı vaxt və say məhdudiyyəti;
- dini ibadət yerlərinə tətbiq edilən say və eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərlə bağlı faiz məhdudiyyəti;
- şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsi ilə bağlı vaxt və say məhdudiyyəti;
- ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanların fəaliyyəti ilə bağlı vaxt məhdudiyyəti, həmçinin hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaqla bağlı məhdudiyyət;
- pandemiya dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı tətbiq edilən adambaşı sıxlıq normaları;
- 10 nəfərdən artıq şəxsin iştirakı ilə tədris və repetitor xidmətlərinin həyata keçirilməsi məhdudiyyəti.

Fəaliyyətinə icazə verilən xidmətlərdən (işlərdən) yalnız etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) istifadə edə bilər.

Qeyd etmək lazımdır ki, məhdudiyyətlərin ləğv olunması şamil olunan iş və xidmət sahələrində koronavirus infeksiyasına qarşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilmiş digər tələblər (girişlərdə COVID-19 pasportlarının təqdim olunması, qapalı yerlərdə maskadan istifadə və s.) qüvvədə saxlanılır.

CƏMİYYƏTİN BAXIŞI

# Bu, biz qadınlar üçün ən böyük hədiyyədir

**8 Mart - iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günüdür. Ümumi olaraq 8 Mart qadınlara qarşı nəzakət, sevgi və məhəbbət tərənnümünü ənənəvi hala gətirmiş bayramdır. Qadınlar Günü ilk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə və Danimarkada keçirilib. Azərbaycanda isə Qadınlar Günü 1917-ci ildən bu günədək qeyd edilir. Bəs, görək şəhər sakinləri 8 Mart Beynəlxalq Qadınlar Gününü necə keçirir? SİA bu məsələ ilə bağlı onlar arasında sorğu keçirib.**

**Şəhər sakini Mələhət Mövsümova:** ”Qadın üçün bir gün deyil, hər gün önəmli olmalıdır. Həyat yoldaşım və oğullarım mənə hər günü bayram kimi



yaşadırlar. Bir qadın olaraq hədiyyə kimi gülə üstünlük verirəm. Lakin hər bir qadın üçün ən dəyərli hədiyyə hörmət, dəyər və sevgidir”.

**Şəhər sakini Sultan Məmmədov:** ”Təbii ki, biz kişilər olaraq Qadınlar günündə vəzifəmiz onları xoşbəxt etməkdir. Məncə, qadınların üzünü güldür-



mək onlar üçün ən gözəl hədiyyədir. Kişilər yalnız 8 Martda deyil, hər an ailəsindəki qadınlara sevgi göstərməlidir”.

**Şəhər sakini İlhamə Elşadqızı:** ”Öncəliklə, başda Azərbaycan qadınları olmaqla bütün dünya qadınlarını 8 Mart Qadınlar günü münasibətilə təbrik edirəm. Hər birinə qadın xoşbəxtliyi



arzu edirəm. Bizim Həcər kimi, Nigar kimi, Salatın Əsgərova kimi məğrur, mərd qadınlarımız olub. Onlar hər bir dövrün Azərbaycan qadını üçün bir örnəkdir. Mən şairə olduğum üçün xoş bir söz hər hədiyyəni əvəz edir. Hədiyyə almaq vacib deyil. Əsas qadını xoşbəxt etməkdir”.



**Şəhər sakini Ramazan Neyiş:** ”Mən türk vətəndaşı olsam da, illərdir Azərbaycanda yaşayıram. Azərbaycan qadınlarının hər biri çox cəsarətli və



hörmətə layiqdir. Qadınlar günündə onları gül ilə təbrik etməyə üstünlük verirəm. Hər birinə xoşbəxt ömür arzu edirəm”.

**Şəhər sakini Aydan Balakişiyeva:** ”Bütün qadınlara əzilmədən, çalışaraq irəli getməyi və yaxşı mənada



örnək olmağı arzu edirəm. Mənə elə gəlir ki, hədiyyənin bir önəmi yoxdur. Düşünülmək belə qadınları sevindirməyə kifayət edir”.

**Şəhər sakini Rüstəm Paşayev:** ”İlk öncə hər bir Azərbaycan qadınının bayramını təbrik edirəm. 8 Martda öz




ailəmdəki xanımlara hədiyyə alaraq üzlərini güldürürəm. Ətrafımdakı digər qadınların isə bayramını təbrik edib, onları xoş sözlərlə dəyərli hiss etdirdiyimi düşünürəm”.

**Şəhər sakini Elmina Fətullayeva:** ”Bir qadın kimi istərdim ki, hər ürəkdə



daimi sevgi olsun. Qadın özünü sevməyi bacarmalıdır. Kişilər qadınlara hörmətlə yanaşsa, xoşbəxt etməyi bacarsa bayramda xüsusi bir hədiyyəyə ehtiyac qalmaz. Bu biz qadınlar üçün ən böyük hədiyyədir”.

**Şəhər sakini Emin Əfəndiyev:** ”Mən 8 Martda öz anama, həyat yoldaşıma gül və ya ətir alaraq onları təbrik edirəm. Amma bunların çox böyük bir



əhəmiyyəti yoxdur. Qadınları yalnız sevgi ilə xoşbəxt etmək mümkündür. Hər bir qadına sevilməyi arzu edirəm”.

**Şəhər sakini Sona Əliyeva:** ”Mən düşünürəm ki, qadınları bir gün deyil, hər gün dəyərli hiss etdirmək lazımdır.



Yəni, sırf 8 Mart günündə hədiyyə almaqla qadını xoşbəxt etmək olmur. Mənim üçün hüzur ən gözəl hədiyyədir. Ətrafımda olan insanların mənə hüzur verməyi kifayətdir”.

***Ləman Əlizadə***

SORĞU




# “Azərbaycan fəal mübarizəyə qoşulan ilk dövlətlərdən oldu”

“Koronavirus səbəbindən dünyada pandemiya barədə qərar qəbul edildikdən dərhal sonra Azərbaycan dövləti bu xəstəliyin qarşısının alınmasında fəal mübarizəyə qoşulan ilk dövlətlərdən oldu”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Kamilə Əliyeva bildirib. Onun sözlərinə görə, ölkəmiz ÜST ilə sıx əlaqə qurdu və qurumun qəbul etdiyi bütün tövsiyələr respublikamızda yaradılan Operativ Qərargah tərəfindən araşdırılaraq müvafiq qərarlar qəbul edildi: ”Beynəlxalq aləmdə də xəstəliklə mübarizədə Azərbaycan dövlətinin böyük köməyi və yardımı BMT tərəfindən yüksək qiymətləndirilmişdir.

Fevralın 25-də BMT Baş Assambleyasının ”Universal peyvəndləmə üçün səylərin artırılması” mövzusunda keçirilmiş yüksək səviyyəli müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev COVİD-19 pandemiyası ilə bağlı ölkəmizin, eləcə də Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının verdiyi töhfələr barədə çıxış etdi.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çətin bir vaxta, pandemiya dövrünə təsadüf etdi. Cənab İlham Əliyevin sədrliyi dövründə beynəlxalq aləmdə Qoşulmama Hərəkatının nüfuzu artdı. Pandemiyanın başladığı dövrdən Qoşulmama Hərəkatı dünya ictimaiyyətinin səylərini fəal şəkildə səfərbər edərək pandemiya ilə mübarizə və onun mənfi fəsadlarının aradan qaldırılması üçün bir çox uğurlu təşəbbüslər irəli sürmüşdür. BMT Baş Assambleyasının COVİD-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi, eləcə də 2021 ci ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş ”COVİD-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlər bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi”nə dair qətnamələr Qoşulmama Hərəkatı adından məhz cənab İlham Əliyev tərəfindən irəli sürülmüşdür.

Çıxışında peyvəndlərin ədalətsiz bölgüsü prosesinin davam etdiyini vurğulayan cənab İlham Əliyev az və orta gəlirli ölkələrə peyvəndlərin tədarükünün aşağı səviyyədə olduğunu və bu sahədə təcili tədbirlərin həyata keçirilməsinin vacib olduğunu diqqətə çatdırdı. Bu gün peyvəndlərin inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında qeyri bərabər bölgüsü pandemiyanın aradan qaldırılmasına nail olmağın qarşısını alır. Dünyada iqtisadi artımın qarşısını alan amillərdən biri də budur.

Azərbaycan az gəlirli ölkələrə peyvənd ianə edən dövlətləri alqışlayır və bu xeyirxah təşəbbüsü hər zaman təşviq edir. Pandemiyanın tezliklə aradan qaldırılması bütün dövlətlərə peyvəndlərin məqbul qiymətə, vaxtında və bərabər çatdırılması üçün digər ölkələr və beynəlxalq təşkilatlar səy göstərməlidirlər. Ölkə başçımızın hər çıxışında olduğu kimi budəfəki çıxışında da bütün dövlətləri ”peyvənd millətçiliyi”nə qarşı çıxmağa, peyvəndlərin bərabər bölünməsində həmrəylik nümayiş etdirməyə çağırdı.

Prezident cənab İlham Əliyevin şəxsi nüfuzu nəticəsində Azərbaycan əhalisini peyvəndlə təmin edən ilk dövlətlərdən oldu. Görülmüş tədbirlər nəticəsində Azərbaycan 2021 ci ilin yanvarından peyvəndləmə prosesinə başlamışdır. Artıq ölkəmizdə bu günədək yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. COVİD-19-dan əziyyət çəkən əhalimizə və sahibkarlıq subyektlərinə dövlət tərəfindən 1,6 milyard ABŞ dolları həcmində maliyyə yardımı ayrılmışdır.

Həmrəylik əlaməti olaraq koronavirusla mübarizə çərçivəsində Azərbaycan birbaşa və ÜST vasitəsilə 80 ölkəyə maliyyə və humanitar yardım etmiş, eləcə də 5 ölkəyə peyvənd ianə etmişdir. Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə peyvənd ianə etməsi prosesi davam etdirilir. Prezident cənab İlham Əliyev bir daha dünyaya Azərbaycanın humanitar bir dövlət olduğunu çatdırdı”.

***S.Hüseynli***

# 8 mart

## yarmakasında maraqlı bir gün

**Bütün dünyada olduğu kimi Azərbaycanda da hər il 8 mart Beynəlxalq Qadınlar Günü qeyd olunur.**

### Bəs, bu gün necə yarandı?

Hər il 8 mart tarixində qeyd olunan bu bayram qadınların iqtisadi, ictimai və siyasi mübarizəsini, habelə ümumi olaraq qadınlara qarşı nəzakət, sevgi və məhəbbəti tərənnümünü ənənəvi hala gətirmiş bayramdır. Qadın hərəkatının tarixi 1857-ci ildə Nyu-Yorkda qadınların 12 saatlıq iş gününə etirazı ilə başlayıb. 1910-cu ildə alman sosialist qadın Klara Setkin 8 mart tarixinin dünyada qadınlar günü kimi qeyd edilməsinə nail olub. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib.

Qadınlar bayramı Azərbaycanda da geniş qeyd edilir. 1965-ci ildən keçmiş SSRİ-də 8 Mart - Beynəlxalq Qadınlar Günü istirahət günü elan olunub. Azərbaycan müstəqillik əldə etdikdən sonra da 8 Mart - Beynəlxalq Qadınlar Günü ölkədə qeyri-iş günüdür. Azərbaycan qadınları artıq cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər. Milli əxlaqi dəyərlərimiz, adət-ənənələrimiz, dilimizin saflığı məhz analarımızın müdrikliyi sayəsində çətin və mürəkkəb dövr-



lərin sınağından çıxa bilib. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, elm, mədəniyyət və digər sahələrdə qazandığı uğurlar Azərbaycan qadınının mədəni və intellektual potensialından xəbər verir.

Hər il olduğu kimi bu il paytaxtın müəyyən ərazilərində 8 Mart Beynəlxalq Qadınlar Günü



münasibətilə hədiyyə yarmarkaları açılıb. SİA olaraq **"28 May" metrostansiyası yaxınlığında yerləşən yarmarkalara yollandıq.**

Burada növbənöv güllərin satışı ilə məşğul olan **satıcı Cavid Babayevin** sözlərinə görə, 8 martda güllərin qiymətində heç bir dəyişiklik olmayacaq: "Biz birinci ildir ki, buradayıq. İnsanlar daha çox ev güllərinə üstünlük verirlər. Ən çox alınan güllər isə qardeniya, 7 gözəl, azaliya, beqoniyadır. Güllərin qiymətləri 1 azn-dən başlayır, 50-60 azn-dək davam edir.

Hədiyyə üçün insanlar ən çox qızılgüllərə, tülpanlara daha çox üstünlük verirlər. Hazırda qızılgülün bir dənəsi 3 azn-dir. 8 mart Beynəlxalq Qadınlar Günündə də qiymətlər olduğu kimi qalacaq. Heç bir dəyişiklik olmayacaq. Bura yarmarka olduğu üçün qiyməti qaldırmaq düzgün deyil".

Rəngli və maraqlı qar kürələri ilə diqqətimizi çəkən yarmarkaya yaxınlaşdıq. Bu yarmarka rəngli və fərqli qar kürələri və suvenerləri ilə hər kəsin diqqətini çəkir. Satıcı Hüseyn Orucov bildirib ki, insanlar hədiyyə alarkən ən çox yumşaq oyuncaqlara və suvenerlərə üstünlük verirlər: "Yumşaq oyuncaqların ən ucu-



zu 6 azn-dir, ən bahalısı isə 45-50 azn arasında olur.

Qar kürələrdən başqa cürbəcür naxışlı, rəngli və fərqli olan stəkanlara da üstünlük verilir. Qar kürələrinin qiyməti 4-35 azn arasında dəyişir. Stəkanların qiyməti isə 4-15 azn arasında dəyişir. Müştərilərin daha çox aldıqları hədiyyələrdən biri də suvenerlərdir. Suvenerlərin qiyməti 1 manat 50 qəpikdən başlayır 7 manata kimi davam edir. Bayram ərəfəsində qiymətlər olduğu kimi qalacaq. Çünki satış çox yaxşıdır".

Bu yarmarkanın digər yarmarkalardan fərqi isə ondan ibarətdir ki, burada balaca rəngbərəng oyuncaq maşınlar satılırdı. Satıcının dediyinə görə, oyuncaq maşınların qiyməti 5 manatdan başlayır 12 manatadək dəyişir.

Daha sonra digər gül satan yarmarkaya yaxınlaşdıq. **Satıcı Məhəbbət Mənsimli**nin dediklərinə görə, ən bahalı gül sayılan orxideyalardır: "Orxideyaların qiyməti 35 manatdır. Bundan başqa quzmaniya adlı güllərimiz də var. Bunların qiyməti isə 25 manatdır.



REPORTAJ











İnsanların ən çox aldığı gül orxideyadır. 8 mart günündə qiymətlər qalxmayacaq. Əksinə enməsini gözləyirik. Biz əsasən ev bitkilə-





rinə üstünlük veririk. Çünki insanlar ən çox ev bitkilərinə üstünlük verirlər".

Başqa bir yarmarkaya yaxşınlaşdıq. Bu yarmarkanın fərqi ondan ibarətdir ki, burada təkcə güllər yox, həmçinin cürbəcür suvenerlər, hədiyyəlik əşyalar da satılır. **Satıcı Sübhan Əhmədovun** sözlərinə 7 ildir ki, fəaliyyət göstərirlər: "Burada insanlar hər dəfəsində fərqli hədiyyələr alırlar. Sırf bir hədiyyə almırlar.

Əsasən suvenerlərə, güllərə üstünlük verilir. Güllərin qiyməti 1 manatdan başlayır 30-





35 manatadək davam edir. Suvenerlərin qiyməti isə 1 AZN-dən başlayır, 6 AZN-dək davam edir. Suvenetlərin qiyməti əsasən onların ölçülərindən asılıdır. Təbii ki, balaca suvenerlərin qiyməti böyük suvenerlərin qiymətindən daha ucuzdur".

Bu yarmarkanın həmçinin ətir bölməsi də var idi. Ətir bölməsindəki satıcı Hətəm Rəhimov bildirdi ki, burada hər cür ətirlər var: "Ətirlərin qiymətləri arasında təbii ki, fərqlər var. İnsanlar hədiyyə alarkən ən çox fərah ətirlərə üstünlük verirlər. Bundan əlavə həmçinin şirin ətirlərimiz də var. Lakin bu cür ətirlərə çox üstünlük verilmədiyindən az sayda satırıq. Ətirlərin qiyməti 5 AZN-dir. Ən bahalı ətir isə 25 AZN-dir".

**Şəhər sakinlərindən 8 mart Beynəlxalq Qadınlar Günündə hansı hədiyyələri alacaqlarını soruşduq:**

**Şəhər sakini Əli Rəhmanov:** "Hər il olduğu kimi bu il də anama və bacıma 8 martda hədiyyə alacam. Anam ən çox gül sevdiyi üçün demək olar ki, hər il ona gül alıram. Ba-



cıma isə duxu, aksessuar kimi hədiyyə alıram. Düşünürəm ki, bu bayramda hər bir xanım sevinməlidir. Çünki 8 mart onların günüdür".

**Şəhər sakini Qumral Baxşəliyeva:** "8 martda anama gül və gümüş sep almağı dü-



şünürəm. Anamı sevindirməyi çox sevirəm. Bu bayramda hər bir qadın xoşbəxt olmağa layiqdir. Ona görə də, bu bayramda əsasən anaları yaddan çıxartmaq olmaz".

**Şəhər sakini Niyazi Əhmədov:** "Bildiyimiz kimi 8 mart bütün dünyadakı qadınların



bayramıdır. Nəinki bu bayramda, onlar həmişə xatırlanmalı və sevib-sevilməlidir. Hər il olduğu kimi bu il də anama hədiyyə alacam. Anama həmişə iki hədiyyə alıram. Biri mütləq gül olur. İkinci hədiyyə isə ya qolbaq, ya sep, ya duxu və s. olur".

**Şəhər sakini Leyla Əliyeva:** "Bu bayramda ən çox gül hədiyyə olunur. Ona görə də



mən də doğmalarıma və əzizlərimə gül hədiyyə edirəm. Ümumiyyətlə bu bayram yer üzündəki bütün qadınların bayramı olduğuna görə, bu gündə bütün qadınlar xatırlanmalıdır".

***Arzu Qurbanzadə***


























# Yeni Azərbaycan Partiyası: tərəqqi simvolunun reallığı

### YAP-ın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinə yeni, çevik mexanizminin yaradılmasına öz böyük töhfələrini verməkdədir

Yeni Azərbaycan Partiyasının xalqın etimad və inam ünvanına çevrilməsi danılmaz faktora çevirlib. Belə ki, yarandığı gündən etibarən, hazırkı dövrümüzə qədər öz fəaliyyəti ilə dövlətimizin inkişafına, yüksəlişinə xidmət edən YAP bu gün də şərəfli və qələbəli yoluna davam edir. Ümummilli Lider Heydər Əliyev ideallarına sədaqətini, Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf kursunu əzmlə həyata keçirən Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin apardığı islahatlar isə öz töhfələrini verməkdə davam edir. O cümlədən, partiya yarandığı ilk gündən cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilib. Partiyanın yaradıcısı dahi şəxsiyyət, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra hakim partiya statusunu alan YAP daim siyasi proseslərin önündə olub, ona göstərilən etimadın öhdəsindən layiqincə gəlib. Eyni zamanda, partiya bu illər ərzində əldə etdiyi nailiyyətlərlə kifayətlənməyib, Azərbaycanın parlaq gələcəyi naminə ilklərə imza atıb, cəmiyyətimizdəki yeniliklərlə, dəyişikliklərlə bir addımlayıb. YAP-ın bir il öncə - 5 mart 2021-ci il tarixdə keçirilmiş VII qurultayında qəbul edilmiş mühüm qərarlar və ondan sonra həyata keçirilən əhəmiyyətli tədbirlər bir daha sübut etdi ki, Azərbaycanda siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasında, təkmilləşməsində hakim siyasi təşkilatın yeri və rolu məxsusidir.

### Qəbul edilmiş Proqram yeni yol xəritəsinin, çağırışların müxtəlif istiqamətlərinin müəyyənləşdirilməsinə öz müsbət təsirini göstərdi

Ölkə Prezidenti cənab İlham Əliyevin partiyanın VII qurultayda proqram xarakterli çıxışı, həmçinin, vacib qərarların qəbul edilməsi YAP-ın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinə yeni, çevik mexanizminin yaradılmasına öz böyük töhfələrini verməkdədir. Beləliklə, Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul olunmuş qərarlar, yeni Nizamnamə müasir dövrün bütün tələb və çağırışlarına cavab verdi, partiyanın fəaliyyətində keyfiyyət etibarı ilə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Daha təkmil idarəetmə formasının müəyyən olunması, yeni Proqramın demokratik dəyərlərə və milli maraqlara əsaslanan, habelə müasir yanaşma və metodları özündə ehtiva etməsi hakim partiyanın ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsinə, yeni yol xəritəsinin, çağırışların müxtəlif istiqamətlərinin müəyyənləşdirilməsinə öz müsbət təsirini göstərdi.

### Qələbələrdən qələbələrə doğru!

Yeni Azərbaycan Partiyası 44 günlük Vətən müharibəsi dönəmində milli birlik modelini dünyaya nümayiş etdirdi, Azərbaycanın siyasi həyatında yeni bir strategiyanın - siyasi həmrəylik, inteqrasiya və milli birlik modelinin əsasını qoydu. O cümlədən, YAP-ın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi də ölkəmizdə uğurla həyata keçirilən xarici siyasətin davamıdır. Dostluq və qardaşlıq əlaqələri digər sahələrdə olduğu kimi, hakim siyasi partiyaların münasibətlərində də dinamik şəkildə inkişaf edir. Azərbaycan və Türkiyənin iqtidar partiyaları arasında uzun illər davam edən əməkdaşlıq 2021-ci ildə yeni mərhələyə qədəm qoydu. Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət



Mehdi BALABƏYOB,
YAP Şabran rayon təşkilatının sədri

və İnkişaf Partiyası (AK Parti) arasında ötən il iyun ayının 2-də imzalanmış əməkdaşlığa dair niyyət protokolu xüsusi əhəmiyyət kəsb edir.

Habelə, altı siyasi partiyanın YAP-a qoşulması da partiyanın cəmiyyətə milli həmrəylik mesajları verdiyini, qapılarının konstruktiv qüvvələrə açıq olduğunu nümayişi, eyni zamanda ölkəmizin siyasi mühitində siyasi dialoq mühitinin dərinləşməsində, demokratik ənənələrin şaxələnməsində yenilik oldu. Bu proses milli dövlətçilik ənənələrinin də irəliləməsinə öz bəhrələrini verəcəkdir.

### YAP-ın beynəlxalq əlaqələri uğurlu nəticələrə söykənir

YAP-ın beynəlxalq əlaqələri də sürətli inkişaf yolundadır. Partiyanın uğurlu diplomatiya spektorundakı rolu da məhz bu cür qənaətə gəlməyə zəmin yaradır.

Belə ki, YAP-ın Rusiya, Çin, Özbəkistan, Tacikistan, Ukrayna, Yaponiya, Vyetnam, Laos və Kambocanın da hakim partiyaları ilə əlaqələri mövcuddur. YAP Asiya regionunda 350-dən artıq siyasi partiyanı əhatə edən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin üzvü kimi qurumun tədbirlərində fəal iştirak edir, həmçinin, dünyanın 100-ə yaxın siyasi partiyasını özündə birləşdirən Mərkəzçi Demokrat İnternasionalının (İDC-CDİ) müşahidəçi üzvü olaraq fəaliyyətini davam etdirir.

### Bu uğurlar həm də Ulu Öndər Heydər Əliyev ideologiyasının yaşadılmasına, əbədiliyinə doğru tərəqqi edən zəfər yolunun davamıdır

Qürurverici haldır ki, hər zaman siyasi proseslərin önündə olan hakim partiya 30 illik yubileyinə daha fəal və mətin addımlarla qədəm qoyur. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ümumxalq partiyası olaraq bundan sonra da qarşısında dayanan vəzifələrin öhdəsindən layiqincə gələcək, Azərbaycanın bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlarının sürətli və hərtərəfli inkişafına davamlı töhfələr verəcək. Bu uğurlar həm də Ulu Öndər Heydər Əliyev ideologiyasının yaşadılmasına, əbədiliyinə doğru tərəqqi edən zəfər yolunun davamıdır.

# "Siyasi məqsədlər üçün tələbələrdən istifadə etmək yolverilməzdir"

***Təhsil eksperti Kamran Əsədov SİA-ya müsahibə verib. Həmin müsahibəni təqdim edirik.***

*- Ukrayna və Rusiya arasında gedən bu müharibədə Ukraynada təhsil alan azərbaycanlı tələbələrin bugünkü vəziyyəti ilə bağlı hansı məlumatlar var?*



- Hazırda bütün dünyanın bir nömrəli məsələsi Ukrayna və Rusiya arasında gedən müharibədir. Biz bütün hallarda insanlığa qarşı törədilən bir hərəkətə çox pis yanaşırıq və bir insanın həyatını dünyada heçnə ilə ölçülməyəcəyini çox yaxşı bilirik. Bildiyimiz kimi azərbaycanlıların ən çox təhsil aldıqları ölkə Türkiyədən sonra Ukraynadır. Hazırda Ukraynada 8 minə yaxın azərbaycanlı tələbələr var. Onlardan 6 mini əyani təhsil alır. Pandemiya səbəbindən bəzi ali təhsil müəssisələri tədrisi onlayn təşkil etsə də, 5 mindən çox azərbaycanlı tələbə ikinci semestrdə tədrisdə əyani formada iştirak etmək üçün Ukraynaya gediblər. Ukrayna tələbələrini iki kateqoriyaya bölürəm. Birincisi ailələri baxımından Ukraynaya köçən azərbaycanlılar, ikincisi Azərbaycanda hər hansı bir imtahan vermədən atestatla Ukraynanın universitetlərinə qəbul olanlardır.

Onu qeyd edim ki, hazırda ən çox azərbaycanlı tələbə birinci Kiyevdə, Odessada və Xarkovdadır. Ən çox azərbaycanlı tələbə Xarkovda hüquq-mühafizə orqanlarına aid olan təhsil müəssisələrində təhsil alırlar. Kiyevdə və Odessada hüquq və iqtisadiyyat təhsili alan azərbaycanlı tələbələr daha çoxdur. Çox təəssüflər olsun ki, sosial şəbəkələrdə belə bir fikir var ki, bizim qəbul qaydalarımızdan dəfələrlə asan olduğuna görə, tədrisin səviyyəsi aşağıdır. Bu, birmənalı olaraq yanlışdır. Hazırda Ukraynada 167 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda orada olan tələbələrin taleyi təkcə Təhsil Nazirliyini yox, bütün dövlət qurumlarını narahat edir. Azərbaycan Xarici İşlər Nazirliyi bu istiqamətdə çox fəaldır. Son 3 gün ərzində azərbaycanlı vətəndaşlar və tələbələr Ukraynaya qonşu olan ölkələrə gedərək oradan birbaşa reyslərlə Azərbaycana qayıdırlar. Bizdə olan məlumatlara görə, hazırda 40-dan çox tələbə Xarici İşlər Nazirliyinin birbaşa dəstəyi ilə çarter reysləri ilə Azərbaycana gətiriliblər. Çox təəssüf ki, münaqişə zonasında həyatını itirən azərbaycanlı tələbələr də var. Bu bizim üçün çox ağır bir xəbərdir. Düşünürəm ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Təhsil Nazirliyi tələbələrin təhsil almasında davamlılığını və dayanıqlılığını təmin etmək məqsədilə həmin Ukraynada təhsil alan tələbələrin birbaşa Azərbaycana köçürülməsini təmin etməlidir. Çünki həmin tələbələr 2-3 il müddət ərzində orada təhsilini davam etdirə bilməyəcək.

*- Rusiyalı tələbələrin qərb universitetlərindən xaric olunmasına dair məlumatlar yayılıb. Ümumiyyətlə bu nə dərəcədə düzgündür?*

- Hazırda rus vətəndaşı olan tələbələr Avropa ölkələrində təhsil alırlar. Həmin tələbələrin sosial şəbəkələrində yazdıqlarına görə, onların ali təhsil müəssisələrində davamlılığı ilə bağlı problemlər var. Həmin tələbələr bildiriblər ki, onlar universitetlərə gedən zaman universitetə buraxılmayıblar. Bu faktlar daha çox Polşada, Çexiyada müşahidə olunur. Düşünürəm ki, bu addım yanlış addımdır. Beynəlxalq konvesiyalara görə, həmçinin mövcud kontitusiyaya görə, insanların təhsil almaq hüquqları heç bir halda məhdudlaşdırıla bilməz. Xoş olmayan odur ki, bəzi ölkələr siyasi məqsədlər üçün rus tələbələri universitetlərə buraxmırlar. Düşünürəm ki, siyasi məqsədlər üçün tələbələrdən istifadəyə yol verməkolmaz. İnsanların təhsil almaq hüquqları məhdudlaşdırılmamalıdır.

*- Bildiyimiz kimi Təhsil Nazirliyinin brifinqi keçirildi. Brifinqdə təhsil naziri Emin Əmrullayev də iştirak edirdi. Brifinqdə əsas toxunulan məsələ nə idi?*

- Təhsil naziri Emin Əmrullayev müvafiq brifinqdə bir neçə vacib məsələyə toxundu. Gənclərimizi maraqlandıran ən aktual məsələlərdən biri də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ikinci xaricdə təhsil dövlət proqramı təsdiq edildi. Belə ki, birinci təhsil dövlət proqramı 2007-2015-ci illəri əhatə edirdi. Həmin proqramda 5 min azərbaycanlı gəncin xaricdə təhsil alması proqnazlaşdırılmışdı. Amma həmin proqram çərçivəsində 3500 azərbaycanlı gənc xarici ölkədə təhsil almağa getdi və onların təhsil alması üçün dövlət büdcəsindən 90 milyon manat vəsait ayrılmışdı. İndi isə təşkil olunmuş yeni dövlət proqramı əsasında il ərzində maksimum 400 gəncin dövlət büdcəsinin vəsaiti hesabına xaricə getməyi proqnazlaşdırılıb. Əvvəlki proqramda diqqət daha çox bakalavr səviyyəsinə ayrılmışdı. Amma indiki proqramda isə 80% magistratura pilləsinə yer ayrılacaq. Brifinqdə ikinci ən əsas məqam uşaq bağçaları və körpələr evinin müqəddəratı ilə bağlıdır. Bildiyimiz kimi ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2021-ci ilin dekabr ayında icra hakimiyyətlərindən alınaraq Təhsil Nazirliyinin tabeliyinə verildi.

Digər bir məsələ isə regional təhsil idarələri məsələsidir. Regional təhsil idarələri cənab Prezidentin fərmanı əsasında yaradılıb. Amma bir çoxları elə düşünür ki, rayon təhsil şöbələri ləğv olunacaq. Ancaq bu elə deyil. Hazırda rayon təhsil şöbələri şöbə olaraq yox, sektor olaraq fəaliyyət göstərəcəklər. Onlar öz yerlərində qalacaqlar. Ümumilikdə təhsil ağır bir sahədir və inanırıq ki, mövcud islahatlar bizi gələcəkdə təhsil sahəsində daha da inkişaf etdirməyə gətirib çıxardacaq.

*- Bəzi diplomlar var ki, Azərbaycanda tanınmır. Bunun səbəbi nədir?*

- Əvvəlki illərin təcrübəsi göstərir ki, xüsusən diplomların tanınması ilə bağlı bir sıra əsaslı tələblər olub. Hazırda bu tələblər yoxdur. Çox təəssüf ki, gənclərimiz Ukraynaya getdikdə Azərbaycanın diplom tanınma prosedurunu unudurlar. Gələcəkdə xaricə təhsil almağa gedən şəxslər xüsusilə 3 qaydanı xüsusən diqqətdə saxlamalıdır. Azərbaycan bütün ölkələrin diplomalarını tanıyır. Amma əgər, həmin ölkənin universitetində təhsil qiyabidirsə semestr ərzində 15 gün, əyanidirsə 90 gün olmalısınız. Çox təəssüf ki, Ukraynada təhsil alan gənclərimizin böyük əksəriyyəti tədris dilini bilmirlər. Həmin tələbələr qayıtdıqdan sonra iki sual verilir. Həmin ölkənin ərazisində nə qədər qalmısınız? Tədris dilini bilirsinizmi? Əgər 4 il ərzində tələbə həmin ölkənin universitetində təhsil alırsa və tədris dilini bilmirsə, Azərbaycanda həmin diplomun tanınmamağı çox normaldır.

**Arzu Qurbanzadə**

# Universitetlərə qəbul olmaq qaydaları niyə qarışıqdır?

**Daha əvvəl imtahan vermiş və müvəffəqiyyətsizliyə rastlamış tələbələr üçün uğursuzluğun səbəblərini soruşduqda cavablarının bir-birinə çox yaxın olduğunu görə bilərik. Bu cavablar abituriyentin imtahana hazırlaşarkən nələrdən uzaq durmalı olduğunu göstərir. Hamımız uğur qazanmaq istəyirik. Amma bunun üçün həyatımızda olan vəzifələri prioritetləşdirib, ən qısa zamanda hərəkətə keçməliyik. Aşağıda sadalanan xüsusiyyətlərdən hətta birinə belə sahibsinizsə, dərhal vərdişlərinizi dəyişməyə başlayın. Çünki bütün bu vərdişlərə sahib olmaq və əl çəkmək öz əlimizdədir.**

İmtahanlarda istədikləri balı toplaya bilməyən tələbələrin 7 xüsusiyyəti:



**1- İşləmək istəyini gözləyirlər**

İmtahana hazırlaşan tələbə üçün bir dəqiqə belə önəmlidir. Əgər özünüzdə bu istəyi oyatsanız və mümkün qədər tez başlasanız, gözlənilməz nəticələr əldə edəcəksiniz.

**2- Plansız işləyirlər**

Öyrənmək özünü tərbiyə etməyin bir formasıdır. Ona görə də ilk növbədə nə qədər vaxtınız olduğunu bilmək və dərsdənkənar işləri hesablayaraq bu vaxtdan ən səmərəli şəkildə necə istifadə etməyi planlaşdırmaq lazımdır. Əks halda planladığınız fəaliyyətlərə və vaxta əməl etmək sizin üçün çətin olacaq və bu motivasiyanızı azalda bilər.

**3-Televiziya, kompüter, mobil telefonu kimi imtina etmədikləri vərdişləri var.**

Texnologiyanın ön plana çıxdığı bir dövrdə yaşayırıq. Uğur bəzi şeyləri qurban verməklə mümkündür. Xüsusilə mobil telefonlar, kompüterlər və televizorlardan uzaq durmaq lazımdır. Eyni zamanda musiqi dinləmək və dərs oxumaq sizə heç bir fayda verməyəcək. Ancaq eyni anda yalnız bir iş görsəniz, səmərəlilik əldə edə bilərsiniz. Uğurlu olmaq istəyirsinizsə, zehninizi rahatlaşdıracaq və hədəfinizə çatmağınıza kömək edəcək fəaliyyətlərlə bu vərdişləri təcrid etməyə çalışın.

**4-Özlərinə məqsəd qoymurlar, qoyanda da tez əl çəkirlər.**

Məqsədlər qoymaq həm də vaxta qənaət edir. Hədəf təyin oluna bilməyəndə və ya qoyulan hədəflər unudulanda ilk olaraq vaxt itməyə başlayır. Qarşıya qoyulan məqsəddən geri dönmək özünə inamın itirilməsini dərinləşdirir. Heç bir məqsəd və gözlənti olmadan uğur əldə olunmayacağı kimi, uğursuzluğun artmasına da mənfi təsir göstərən amillərdən biridir.

**5- Düzənsiz həyatları var (yuxu və yeməkdə pozğunluqlar)**

Yuxu beynimizin daha effektiv işləməsi üçün vacibdir. Əslində, beyin yuxu zamanı dincəlmir, oyaqkən olduğu kimi çox işləyir, xaricdən deyil, bədəndən və özündən gələn məlumatları emal edir. İnsanları ən səmərəli şəkildə işləməyə hazırlayır. Bunun üçün beyin verilənləri emal etmək, yaddaşda saxlamaq, məlumatı əlaqələndirmək, təsnif etmək, lazım olduqda asanlıqla və dəqiq yadda saxlamaq və düzgün nəticə çıxarmaq üçün yuxu zamanı lazım olan əksər prosesləri yerinə yetirir. Bundan əlavə, nizamsız qidalanma da uğursuzluqla nəticələnir. Gün ərzində fiziki və zehni performansı ən yüksək səviyyədə saxlamaq müntəzəm olaraq qəlyanaltılar və əsas yeməklər qəbul etməklə mümkündür.



**6- Çatışmayan fənləri və dərsləri tamamlamadan həmişə yeni mövzuları öyrənməyə çalışırlar.**

Geridə qoyduğunuz, əskik olduğunuzu bildiyiniz, sualla qarşılaşdığınız zaman həll edə bilməyəcəyiniz məsələləri tamamlamadan yeni mövzuya keçmək uğursuzluq gətirir. Çünki imtahan proqramında bir-biri ilə əlaqəli çoxlu fənlər var.



Birini öyrənmədən digərini öyrənmək mümkün deyil. Bundan əlavə, öyrənilməmiş bir mövzunu möhkəmləndirmək mümkün olmayacaq və bu, həll etdiyiniz sualların sayının azalacağı və alacağınız balın buna görə də istədiyiniz diapazonda olmadığı anlamına gəlir. Hər bir mövzunu hərtərəfli öyrənərək və möhkəmləndirmə suallarınızı həll edərək yeni mövzuya keçin.

**7 - Müvəffəqiyyətli olmaq üçün mövcud (sınanmış və uğurlu) üsullar yerinə unikal üsullar inkişaf etdirirlər.**

Orijinal olmaq həmişə yaxşıdır. Amma bir uğurdursa, bu barədə heç birimiz özümüz inkişaf etdirəcəyimiz üsulların 100% uğur gətirəcəyinə əmin ola bilmərik və vaxtımız bu qədər məhdud olsa da, əvvəllər sınaqdan keçirilmiş və həm də uğurlu olan üsullardan istifadə etmək bizim zərərimizə olmaz.

Hər kəs imtahanlarda istədiyi uğuru əldə edə bilmir. İmtahanda uğursuzluğun səbəbləri çox fərqlidir. Bəziləri az hazırlaşdığı halda yüksək bal toplayarkən, bəzi abituriyentlərin isə əziyyəti yerdə qalır. Bu onların savadsız olması demək deyil. Bu tip gənclər imtahana ciddi şəkildə hazırlaşsalar da həyəcanın qurbanı olurlar. Vacib olan problemin nə olduğunu bilmək və onu həll etməkdir. Bunun üçün isə bir neçə məsləhətə ehtiyac var:

### Mövzuları aydın anlamaq

İmtahanda uğursuzluğun ən böyük səbəbi əsaslı uğursuzluqdur. Bu problemi həll etmək daha çətin olduğundan, məsələləri aydın şəkildə başa düşmək mütləqdir. Məsələlərin tam başa düşülməməsi problemin daha vacib olduğunu göstərir. Bu problem daha pis nəticələr əldə etməyə imkan verir. İmtahanda uğur qazanmaq üçün fənlər düzgün və tam başa düşülməlidir.

### İmtahana lazımi qədər hazırlaşmamaq

İmtahanda fənlərin tam başa düşülməsinin çox vacib olması ilə yanaşı, adekvat və düzgün oxumamaq da imtahanda uğursuzluğun digər səbəbidir. Xüsusən də bəzi fənlərin öyrənilməsi daha çətindirsə və çox yadda qalmırsa, onlar başa düşənə qədər təkrarlanmalıdır. Bundan əlavə, hətta asan başa düşülən mövzuların da zaman keçdikcə daim yenidən işləndiyi barədə bilikləri təzələmək vacibdir. İmtahanda uğursuz olmamaq üçün təcrübə aparılmalı və mövzular yenidən nəzərdən keçirilməlidir. Bu yolla həm düzgün oxuyacaq, həm də imtahanda daha uğurlu olacaqsınız.

İmtahan öncəsi valideynləri və abituriyentləri çaşdıran, yanlış yönləndirən digər məsələ də hər dəfə qaydaların yeni bir mərhələyə keçid etməsidir. Yəni, hər il qəbul qaydalarında fərqli dəyişikliklər olur. SİA məsələ ilə bağlı araşdırma apararaq təhsil ekspertləri və psixoloqların fikirlərini öyrənib.

**Təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi:** ”Qəbul imtahanları artıq start götürür. Qəbulun ilk mərhələsi buraxılış mərhələsi hesab olunur və buraxılış imtahanları



artıq mart ayının 5-dən etibarən, cari ilin məzunları üçün 5-6 mart tarixində bir imtahan keçiriləcək. İmtahanlar müxtəlif istiqamətlər, yeni bölgələr üzrə, 12-13 mart tarixində isə bir istiqamət üzrə keçiriləcək.

Aprel ayının 2-3-də isə əvvəlki ilin məzunları üçün həmin imtahan keçiriləcək. Sonra isə may ayında və iyun ayının əvvəlləri blok mərhələsi üzrə imtahan keçiriləcək. İyul ayının əvvəlindən sonuna qədər isə blok mərhələsi üzrə abituriyentlərə ikinci şans veriləcək. Ümumi bu imtahanlar əsasında əldə olunan nəticələrə görə müsabiqədə iştirak edib etməyəcəklərinə aydınlıq gələcək.

Qeyd edim ki, qəbul imtahanları ali təhsil müəssisələrinə son 2-3 ildir ki, buraxılış imtahanları blok imtahanları nəticələri əsasında həyata keçirilir.

*Ardı Səh. 12*

ARAŞDIRMA

# Universitetlərə qəbul olmaq qaydaları niyə qarışıqdır?

Əvvəli Səh. 11

Abituriyentlər əvvəlcə buraxılış imtahanı verirlər. Orada əldə edə biləcəkləri maksimum nəticə 300 baldır və həmin balın üzərinə isə blok imtahanında əldə etdiyi nəticələr üst-üstə toplanılır. Onun əsasında müsabiqə şərtlərini ödəyəcəkləri nəticə varsa onlar bu müsabiqəyə buraxılırlar.

Orta ixtisas təhsil müəssisələrinə gəldikdə isə orta ixtisas təhsil müəssisələrinə əsasən buraxılış imtahanlarında əldə olunan nəticə əsasında qəbul aparılır. Həmin prosedurda müsabiqə şərtini ödəyən sırf cari və əvvəlki ilin məzunları iştirak edə bilirlər. Artıq ali təhsil müəssisələrinə ərizə qəbulu eyni zamanda orta ixtisas təhsil müəssisələrinə 11illik ərizə qəbulu bu ayın 4-dən etibarən başlanacaq və mart ayının 17-də proses bitəcək. Həmin ərizə qəbulu prosesində həm cari ilin, həm də əvvəlki ilin məzunları mütləq iştirak etməlidirlər. Onların ali təhsil müəssisələrinə, eyni zamanda orta ixtisas təhsil müəssisələrinə müsabiqəsində iştirakları təmin olunsun.

Qəbul qaydalarına gəldikdə isə qəbul qaydaları düşünürəm ki, artıq sadələşir. Düzdür, kurikulum sisteminə keçiddən sonra bir qədər format dəyişikliyi baş verdi. Eyni zamanda pandemiya ilə əlaqədar olaraq ötən il və ondan əvvəlki il imtahanlar buraxılış imtahanları keçirildi və blok imtahanı bir dəfə oldu. Amma bu ildən etibarən yenə neçə buraxılış imtahanları bir dəfə, blok imtahanına isə iki dəfə abituriyentlərə şans verilməsi nəzərdə tutulur.

Ümumiyyətlə, qəbul imtahanı iki mərhələlidir. Birinci mərhələ buraxılış imtahanıdır, ikinci mərhələ də blok imtahan hesab olunur.

Qeyd edim ki, bu ilki dəyişiklik əsasında artıq 3-cü qruplara beynəlxalq münasibətlər və regionşünaslıq ixtisasları qaytarıldı. Əvvəl 2-ci ixtisas qrupunda bu ixtisaslar yer almışdır və o ixtisaslar Nazirlər Kabinetinin Qərarından sonra 3-cü qrupa qaytarıldı. Bu illəri artıq həmin ixtisaslara 3-cü qrupda qəbul aparılacaq. 3-cü qrup üzrə hazırlaşan abituriyentlər isə mütləq Coğrafiya fənnindən imtahan verməlidirlər. Burada artıq iki alt qrup var: DT və TC alt qrupları. DT alt qrupu əvvəlki ixtisasların hər birini əhatə edir, TC isə yalnız Beynəlxalq münasibətlər və Regionşünaslıq ixtisaslarını əhatə edir ki, burada Coğrafiya fənnindən abituriyent əlavə olaraq imtahan verməlidir.

Onu da qeyd edim ki, növbəti ildən etibarən artıq birinci ixtisas qrupunda da bu dəyişiklik olacaq. Orada da İnformatika fənni qrupa əlavə olunacaq və müvafiq olaraq İnformatika fənnindən abituriyentlər imtahan verəcəklər. O abituriyentlər ki, onlar yalnız kompyuter mühəndisliyi, informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi və bu qəbildən olan yeni, kompyuter informasiya texnologiyalarını əhatə edəcək ixtisasları yazmaq hüququ qazanmış olacaqlar".

**Psixoloq Fidan Nizamova:** "Əgər sabah sizin imtahanınız varsa bu gün dərs təkrarlamaq lazım deyil. Beyinə biraz istirahət vermək lazımdır ki, informasiyalar necə varsa qalsın. Çünki axşam oxuyub yatsalar yalnız ən son oxuduqları yadlarında qalacaq.



Bəzən abituriyentlərə elə gəlir ki, bildiklərini unudublar və yaxud da heç nə oxumuyublar. Bu zaman dərs oxuduqları məqamı xatırlasınlar ki, "yəni mən bunları oxumuşam, sadəcə xatırlamalıyam".

Valideyn isə sakitliyi qorumalı, uşağın üzərinə getməməlidir. Onlar övladlarına "səndən bir nəticə gözləyirəm" yox, "mən sənə inanıram, bacaracağını bilirəm, yaxşı nəticəyə laiqsən" deməlidirlər".

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, cari ildə ali təhsil müəssisələrində keçirilən qəbul imtahanlarında məzmun baxımından hər hansısa bir dəyişiklik yoxdur. Sadəcə olaraq forma olaraq ixtisas dəyişikliyi var. Belə ki, 3-cü ixtisas qrupunda beynəlxalq münasibətlər və regionşünaslıq ixtisasları əlavə



olunub və bunun fonunda imtahana əlavə olaraq bu ixtisaslara qəbul olmaq istəyənlər coğrafiya fənnindən imtahan verəcəklər.

Belə ki, 4 martdan 17 marta qədər ali təhsil müəssisələrinə qəbul olmaq istəyən şəxslər elektron ərizə dolduran zaman elektron ərizələrində alt qrup olaraq mütləq şəkildə əgər istəsələr beynəlxalq münasibətlər ixtisasını da seçsinlər, o zaman bu dəyişikliyi alt qrupda seçməlidirlər və 15 manat əlavə pul ödəməlidirlər.

İmtahanlar ümumiyyətlə bu il bildiyimiz kimi mart ayında cari ilin məzunları üçün buraxılış imtahanları keçiriləcək. May ayında isə qəbul imtahanları keçiriləcək və imtahanlar yenə əvvəlki qiymətləndirmə meyarları və alətləri ilə yoxlanılıb ölçüləcəkdir. Təbii ki, bu il 3-cü ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlərin şansları biraz çoxdur. Amma 2-ci ixtisas qrupu üçün bunu demək olmur. 2-ci ixtisas qrupundan beynəlxalq münasibətlər və regionşünaslıq ixtisaslarının çıxması müəyyən qədər plan yerlərini azaldıb. Bu da onların şansının da biraz azalması ilə müşahidə olunacaqdır. Ona görə də 2-ci ixtisas qrupunun abituriyentləri müəyyən qədər diqqətli olmalıdırlar və mən düşünürəm ki, bizim bu il ixtisas seçimi edə biləcək şəxslərimiz də mütləq bu amili nəzərə almalıdırlar ki, ali təhsil müəssisələrində vəziyyət qəbul zamanı fərqli olacaq.

Düzdür, bu dəyişiklik 3-cü ixtisas qrupunda yəni, 3-cü ixtisas qrupuna Beynəlxalq münasibətlər və Regionşünaslığın salınması həmin ixtisaslara da abituriyentlərin yüksək balla qəbul olunmasına və yekun nəticədə daha ixtisaslı şəxslərin təhsillərini davam etdirməyə gətirib çıxardacaq. Ali təhsil müəssisələrinin plan yerlərinin daha çox dolması ilə müşahidə olunacaq. Çünki əvvəlki illərdə beynəlxalq münasibətlər və regionşünaslıq ixtisasları o qədər də dolmurdu. Boş qalan ixtisaslar idi və bu da universitetlərin maliyyə itkisinə gətirib çıxardırdı. İndi isə bu hal olmayacaqdır. Yəni, dəyişiklik 3-cü ixtisas qrupuna Beynəlxalq münasibətlər və Regionşünaslıq ixtisaslarının əlavə edilməsi və bunun fonunda bu ixtisasların qəbul olunmaq imkanına malik olmaqdan ötrü mütləq şəkildə Coğrafiya fənninin imtahan fənnləri arasına daxil edilməsi lazımdır. Yəni, tələbələr mütləq bunu verməlidirlər".

***Ayşən Vəli***

# "Şuşa dünya turizminin gözü olacaq"

**"2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı mühüm tarixi əhəmiyyət kəsb edir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili İlham Məmmədov bildirib.**

Onun sözlərinə görə, dövlətimizin başçısının bu qərarı xalqımızın tarixi və mədəni dəyərlərimizə xüsusi diqqətinin və eyni zamanda böyük ehtiramının göstəricisidir: "Azərbaycan xalqı üçün Şuşa Qarabağın mirvari qaşıdır. Bu həm də simvolizə edilmiş bir mənanı kəsb edir. "Şuşa ili"nin elan edilməsi Azərbaycan, Şuşanın bu günü və gələcəyi ilə bağlı kompleks tədbirlərin keçirilməsi üçün də mühüm əhəmiyyətə malik olacaqdır. Şuşanın bu günü, gələcəyi ümumiyyətlə Azərbaycanın, Qarabağın bu günü və gələcəyi deməkdir. Biz 30 il işğal altında olan Şuşamıza qovuşduq. Şuşa mədəni tarixi, milli-mədəni dəyərlərimizi özündə əbədi yaşadan şəhərdir. Şuşa həm də bizim genetik kodumuzdur. Şuşanın mədəni mühiti, onun ədəbiyyatı, musiqi folkloru bütün azərbaycanlıların qanına hopub. Şuşa bizim ruhumuzdur. Buna görə də hesab edirəm ki, bu çox vacib bir məqamdır. Təbii ki, tarixə də nəzər salsaq 1752-ci ildə əsası qoyulmuş Şuşa mühüm iqtisadi, siyasi əhəmiyyət daşıyan bir şəhərdir. Bu yolun təməlini isə məhz Ulu Öndər Heydər Əliyev qoyub. Qarabağ xanlığının mərkəzi olmaqla ölkəmizin də tarixində məxsusi rol oynayıb. Azərbaycan xalqı üçün mənəvi dəyərə malik olan Şuşaya qayğı ilə yanaşmaq hər bir azərbaycanlının mənəvi borcudur. Tarixi proseslərdə Azərbaycanın torpaqlarının işğal olunması prosesi Qarabağ xanlığından da yan keçmədi. Rusiya çarı ilə Qarabağ xanı İbrahim Xəlil xan sənədə imza atarkən İbrahim Xəlil Xan "Şuşanın və Qarabağın xanı İbrahim Xəlil xan" sözlərini qeyd edib.

Şuşa Azərbaycanın bütün dəyərlərini özündə əks etdirən bir şəhər olacaq. Eyni zamanda Şuşa dünya turizminin gözü olacaq".

***Səbinə***



ANALİTİK+AKTUAL

# Rusiya-Ukrayna savaşı və sanksiyalar: Nikol Paşinyan niyə əl-ayağa düşdü

### Ermənistanın baş nazirinin sülh sazişini imzalamağa hazır olması bəyanatı arxasında hansı faktorlar dayanır?

Rusiyanın Ukraynadakı siyasi maraqlarını hərbi əməliyyatlar yolu ilə davam etdirməsi, Qərbin cavab sanksiyaları və qlobal səviyyədə artan gərginlik son vaxtların gündəmində Ermənistan-Azərbaycan münasibətlərini kölgədə qoymaqdadır. Halbuki son bir ayda Rusiya prezidentinin Azərbaycan və Ermənistan liderləri ilə danışıqları, Fransa prezidentinin də ayrıca olaraq ölkə liderləri ilə apardığı danışıqları qeydə alınıb. Martın 9-da isə Ermənistanın baş naziri Nikol Paşinyan Parisə getməyə hazırlaşır. Ancaq onun Moskva səfəri daha aktual təsir bağışlamaqdadır. Çünki əsas mövzu Qarabağla bağlıdır. Belə ki, Paşinyan bəyan etməsinə görə, gündəlikdə sülh danışıqları dayanıb və bu amilin özü də göstərir ki, proseslərdəki dinamika öz mövcudluğunu qoruyub-saxlamaqdadır.

### Maraqlıdır ki, Paşinyanın Ermənistanın sülh sazişini imzalamağa hazır olması, kommunikasiyaların blokadadan çıxarılması ilə bağlı bəyanat verməsi də məhz İlham Əliyevin Moskvadakı bəyanatından sonra səsləndi

Prezident İlham Əliyev isə Moskvada Bakının gözləntilərini daha aydın şəkildə bəyan etdi: qısa perspektivdə Ermənistan silahlı qüvvələrinin qalıqlarının Qarabağdan çıxarılması, kommunikasiyalarla bağlı götürülən öhdəliklərin Ermənistan tərəfindən sürətlə həyata keçirilməsi. Və maraqlıdır ki, Paşinyanın Ermənistanın sülh sazişini imzalamağa hazır olması, kommunikasiyaların blokadadan çıxarılması ilə bağlı bəyanat verməsi də məhz İlham Əliyevin Moskvadakı bəyanatından (xəbərdarlığından-R.R.) sonra səsləndi.

Lakin ümumi fonda da proseslərin necə və hansı üsullarla davam edəcəyi də maraqlıdır. Görünən isə budur ki, Rusiya ilə Qərbin qarşıdurması məhz Ukrayna cəbhəsinə transformasiya olunub. Belə bir şəraitdə Minsk qrupu çərçivəsində hansısa koordinasiyalardan danışmağa da ehtiyac qalmır. Hətta belə desək, artıq ATƏT demək olar ki, özü-özünə əriyib, yaxud buxarlanıb və bu qurumun üfüqdə belə hər hansı ciddi təsir qüvvəsi, mexanizmləri görünmür...

### Ermənistan Rusiyada qıcıq oyadır və Moskva İrəvanın buxovunu daha da sıxır

Bu baxımdan, növbəti dəfə sübut olunur ki, Ermənistanın bir müddət əvvəl dəvət alaraq qatıldığı və "bəh-bəhlə" təriflədiyi, "demokratiya sammitinə", habelə "frankafoniya" tədbirlərinə qatılması bu ölkə rəhbərliyinin uzaqgörən olmadığı faktını ortaya qoyur. Hansı ki, Ermənistan KİV-ləri və siyasi-ictimai dairələri Azərbaycanın "demokratiya sammitinə" dəvət



almamasını az qala "şanlı qələbə" kimi car çəkirdilər. Elə sanırdılar ki, ABŞ-ın dövlət rəhbərliyinin təşəbbüsü və dəvəti ilə keçirilən "sammit" Ermənistana siyasi üstünlüklər vəd edəcək və s. Amma nə baş verdi? İlk növbədə, Ermənistanın Qərblə oynadığı birgə oyunu Moskvada qıcıq yaratdı və nə vaxtsa həmin qıcıq Moskvanın İrəvana qarşı hansı münasibət göstərməsi fonunda nümayiş olunacaq.

Hətta bu gün Ermənistanın BMT-də Rusiya ilə birgə səs verməsi, eyni zamanda, KTMT-yə sədrliyi də Paşinyanın manevrlər etməsinə şərait yaratmır. Sadəcə, Moskva İrəvanı daha sıx buxovda saxlayır və yaxşı bilir ki, onu boşaltsa, az da olsa yumşaq tutsa əlindən sürüşüb Qərbə sarı yıxıla bilər.

Digər tərəfdən, KTMT-nin koordinatoru rolunu icra edən Rusiyanın Ukrayna ilə apardığı müharibədən sonra, yəni postmüharibə dövründə məhz alyansa üzv ölkələrin, o cümlədən, Ermənistanın "LDNR"ə öz hərbçilərini yerləşdirməsi tələbini edəcəyi kifayət qədər mümkün görünür. Düzdür, hələlik Ukrayna ilə müharibənin nəticələri barədə danışmaq hələ tez olsa belə, əgər Rusiya "LDNR"i əlində salxaya bilərsə, Kremlin bu planının işlək vəziyyətə gətirəcəyini istisna etmək olmaz. Yəni bu, sadəcə, bir fərziyyə, yaxud proqnozdur...

Ancaq fakt budur ki, Rusiya Ukrayna ilə müharibədə Ermənistanı hərbi müttəfiqi kimi istifadə edir. Misal üçün, Suriyada Bəşər Əsəd rejiminin tərəfində döyüşən muzdlu Vaqner qrupunun Ukrayan cəbhəsinə transfer olunmaları üçün Rusiya onları təyyarələrlə İrəvanın "Erebuni" hərbi aerodromuna gətirir, oradan isə Mozdoka və daha sonra döyüşlərin getdiyi ərazilərə göndədir. Ermənistanın hərbi aerodromu faktiki olaraq Ukraynaya qarşı fəaliyyət göstərir.

### Rusiyaya tətbiq edilən və ediləcək ağır sanksiyalar Ermənistanda hansı təsirlərini göstərəcək?

Söz yox ki, sanksiyalar da öz işini görür və Ermənistanın da Rusiyada tətbiq edilən və bundan sonra da ediləcək saysız-hesabsız ağır sanksiyalardan pay alacağı mümkündür. İlk növbədə, Rusiya ilə daha sıx münasibətlərdə olan Ermənistan ciddi zərbələr alacaq: hesablaşmaların valyuta ilə mübadiləsi getdikcə ağırlaşacaq, Ermənistanda fəaliyyət göstərən çoxsaylı Rusiya dövlət şirkətləri süquta uğrayacaqlar. Biz bu sıralamaya Rusiyada çalışan, eləcə də Rusiya pasportu alan erməniləri də əlavə edə bilərik. Düzdür, bu sanksiyalar ümumilikdə dünyadakı enerji daşıyıcılarının qiymətlərinin bahalaşmasına da səbəb olacaq, misal üçün Ermənistan ciddi risklər yaşasa da, belə bir vəziyyət enerji istehsalçısı olan Azərbaycana sərf edir. Amma bütövlükdə ümumdünya inflyasiyası da öz risklərini göstərəcək.

Başqa tərəfdən, yuxarıda da qeyd etdiyimiz kimi, Ermənistanda Rusiya şirkətlərinin sahiblik etmələri bu ölkənin vəziyyətini get-gedə daha da ağırşaşdıracaq. Məsələn, misin qiyməti yüksələcək, amma ölkədəki rus şirkətləri sanksiyalar altına düşdüyü üçün investisiya qoyuluşları köklü şəkildə məhdudlaşdırılacaq və sərmayələr olmadan misin əldə edilməsi, satılması qeyri-mümkünlüyə çevriləcək.

Logistikada da Ermənistan kəskin çatışmazlıqlarla qarşı-qarşıya qalacaq. Məhsulların çatdırılmasında və hesablaşmaların aparılmasında keçilməz baryerlər yaranacaq.

Bakı üçün isə əksinə, imkanlar daha da genişlənəcək. Belə ki, Azərbaycanın tranzit funksiyası imkanları artacaq, buna misal kimi Qərb-Şərq istiqamətini göstərmək mümkündür.

Və ən əsası, hərbi-texniki əməkdaşlıq. Artıq məlumdur ki, Rusiya Ukraynada apardığı müharibədə hərbi potensialını sürətlə tükədir və qarşıdurmada əlavə olunan hər bir gün, hətta saat Rusiyanın arsenalı ilə yanaşı, hərbi büdcəsinin də boşalmasına xidmət edir. Artıq Rusiya üçün hər milyon rubl hesabdadır...

### Ermənistan yarıboş büdcəsini Qarabağ ermənilərinə xərcləməyəcək, parçalanan diaspor isə öz hayındadır...

Nəhayət, Qarabağda yaşayan ermənilər. Ermənistan hakimiyyətinin və diasporun Qarabağ ermənilərinin, sadəcə, quru həyat yaşamaları üçün ayırdıqları illik 300 milyon dollar mövcud vəziyyətdən sonra qeyri-mümkünlüyə çevriləcək. Daha dəqiq desək, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar uzunmüddətlidir və Ermənistanın da bu sanksiyalardan çoxsaylı paylarını alacağından sonra İrəvan onsuz da yarıboş vəziyyətdə olan büdcəsini Qarabağdakı ermənilərə xərcləməkdən imtina edəcək. O cümlədən, Rusiyadakı ermənilər də yoxsullaşmağa başlayacaqlar və Qərb ölkələrində yaşayan ermənilərin də ciddi şəkildə maddi dəstək göstərəcəkləri inandırıcı görünmür. Bildiyimiz kimi, Qərb ölkələrindəki erməni diasporlarında kəskin parçalanmalar müşahidə olunur.

### Nikol Paşinyanın sülh sazişi imzalamaqdan başqa çarəsi və hər hansı yolu da qalmayıb...

Beləliklə, Ukrayndakı müharibə fonunda aparılan analizlər belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, Nikol Paşinyanın sülh sazişi imzalamaqdan, Azərbaycanın ərazi bütövlüyünü tanımasından, kommunikasiya xətlərini açmasından başqa çarəsi qalmır.

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın dövlət başçısı ilə görüşü zamanı əsasən iki məsələni-Qarabağdakı Ermənistan silahlı qüvvələrinin bu əraziləri qısa müddətdə tərk etməsi, eləcə də sərhədlərin delimitasiyası və demarkasiyası məsələsinin sürətləndirilməsi barədə fikirlərini vurğulaması isə belə deməyə əsas yaradır ki, əks halda Azərbaycan qəti addımlarını atmağa daim hazırdır. Üçtərəfli bəyanatda tələb edilən bəndlərin realizə edilməməsi isə eskalasiya mümkünlüyünü artırır və bu, Ermənistan üçün daha çox baha başa gələ bilər. Nikol Paşinyanın sülh sazişi imzalamaqdan başqa çarəsi və hər hansı yolu da qalmayıb...

*Rövşən RƏSULOV*

---



Elçin Bayramlı

# 8 martda xanımlara kitab hədiyyə edək!

### Zərif cinsin oxuması israrla məsləhət görülmür

Mart ayı "Dərviş Məstəli şah"ın sözü olmasın Qoç bürcünün altında vaqe olubdur, ol səbəbdən də bizim xalqın ən böyük bayram ayıdır. 8 Martın şəksiz liderliyinə əngəl törədən Novruz bayramının da bu aya təsadüf etməsinə baxmayaraq, qadınlar üçün martın 8-i tarixinin xüsusi əhəmiyyəti danılmazdır. Çünki, 8 mart həm də kişilərin xanımları ad günündən başqa ildə daha bir dəfə "yada salması"na səbəb olur.

Sentimental əhvalda olan romantik xanımların dediyinə görə, ən çox sevdikləri hədiyyə güldür. Rasional təfəkkürə malik olan realist xanımlar isə işə yarayacaq bir hədiyyə gözləyirlər. Elə deyil deyib keçməyin.

Təsəvvür edək ki, uşağınız müəllliminə bir dəstə gül hədiyyə aparıb. O anda müəllimin gül camalına baxmaq kifayətdir ki, nə qədər böyük səhvə yol verildiyini anlayasan. İnanın ki, o gül dəstəsini alıb adamın başına turp əkər.

İldə cəmi 5-6 gün var ki, imkanlı valideynləri mağazada, imkansızların isə uşaqlarını dərsdə "tərlətmək" şansı yaranır, indi o günlərin ən əsasında bir dəstə kimyəvi ot-ələfi alıb neyləyəcək? Uşaq ona deyərəm ki, müəllliminə qızıl zinət əşyası hədiyyə edə, ya da məsələn, netbukdan, smartfondan zaddan "podarkə" edə. İndi XXI əsrdir axı...

Oğul ona deyərəm ki, sinif yoldaşı olan qızlara "kitayski" "fransız" kosmetikası ala, yoxsa Sovet dövründəki kimi kitab hədiyyə etmək kimi gülünc bir işə qol qoyan oğlanı necə bağışlamaq olar?!

Ya da tutaq ki, Allah eləməmiş, pulla "prava" almış bir eşşəkotaran sizi sakitcə səkiylə getdiyiniz vaxt küçədə at kimi səyrtdiyi bahalı maşınla vurub xəstəxanaya göndərib. Ailə üzvləriniz sizi ziyarətə gəliblər.

Çoxsaylı "doxtur", "medsestra", "sanitarka" ordusuna, xəstəxanada verilməsi məcburi olan dərmanların siyahısı asılmasına baxmayaraq aptekl ərə tökdükləri pullardan başqa ciblərində bir şey qalıbsa, əsas həkimə "podarka" adı ilə bir buket gül alıblar!

Dəhşət! Bu cinayətə heç cür haqq qazandırmaq olmaz! Qərdeşimsön, bura məgər Rusiyadır yainki Fransadır ki, həkimə 1 ədəd gül alasan, o da "otkaz" eləyə ki, bəs mən hələ vicdanımı itirməmişəm ki, öz vəzifəmi yerinə yetirdiyimə görə pul, ya da hədiyyə götürüm. Bizdə həkimə əməlli bir "podarka" almasan, əlini xəstəndən üz...

Elə bilməyin ki, mən gül hədiyyə edilməsinin tərəfdarıyam. Gülü yalnız kənddə yaşayan biri çöldən öz əli yığıb gətiribsə, qəbul etmək olar. Amma böyük şəhərlərdə televizor qiymətinə satılan, üzərinə kimyəvi ətirlər çilənmiş transgen güllər kimə və nəyə lazımdır kı?

Dunyada 1 milyard adam acdır, milyonlarla uşaq acından ölür. Bu süni güllərin "zanit" etdiyi hər 1 sot torpaqda 1 məsum uşağı acından ölməkdən xilas edəcək qədər ərzaq becərmək olardı...

Təbiət özü lazım bildiyi qədər gül yetişdirir, kim istəsə bir zəhmət gedib çöllərdən öz əlləri ilə istədiyi qədər yığa bilər. Əsil gül hədiyyəsi budur. Yoxsa nə ətri, nə təbiiliyi olamayan süni ot ələfin nə mənası var?

Bundansa gül kələmi hədiyyə etmək daha xeyirlidir. Həm güldür, həm qida. Üstəlik, soyuqda bürüşən kələmsatan qadına da xeyir vermiş və bayramını təbrik etmiş olarsan.

8 martda xanımlara kitab hədiyyə edilməsini təklif edirəm. Beləliklə artıq unudulmuş və çox faydalı bir şey olan kitab oxumağı insanların yadına sala bilərik. Həm pulunuz lazımsız şeyə yox faydalı şeyə xərclənmiş olar, həm də qadınlar bu hədiyyədən fayda əldə etmiş olarlar. Yəni, əsas hədiyyə kitab olmalıdır, lakin əgər istəsəniz bunun yanında digər hədiyyələr verməniz də heç bir nöqsan yoxdur.

Xanımlara kitab almağı unutmayın!

# “Kiyev məsələsi istənilən müddətdə baş tutmadı”

## Hərbi ekspert Ədalət Verdiyevin SİA-ya müsahibəsini təqdim edirik:

***- Belarusda Rusiya və Ukrayna arasındakı danışıqların ikinci turu başa çatdı. Sizcə, bu görüş hansı məqamlarla yadda qaldı?***

-Bu danışıqlarda humanitar atəşkəs haqqında razılıq əldə olundu. Bütün detalları açıqlanmasa belə bu razılığın sadəcə qarşılıqlı olaraq əsirlərin, yaralıların və həlak olanların dəyişdirilməsi ilə bağlı olduğunu düşünürəm. Növbəti həftənin bazar ertəsi günü üçün bu danışıqların III hissəsinin baş tutması nəzərdə tutulub. Ukrayna Rusiya qoşunlarının ərazilərdən çıxarılması, Rusiya isə Krımın tanınması ilə bərabər, Luqanski və Danetskinin də muxtar vilayət kimi tanınması şərtini irəli sürür. Rusiyanın digər bir şərti isə hakimiyyət dəyişikliyi ilə bağlıdır. Hələ təsdiq olunmamış məlumata əsasən Rusiya Zelenskini əvəz edəcək şəxsi müəyyənləşdirib. Kiyevi işğal etdikdən sonra Rusiya dövlətin idarə edilməsini həmin şəxsə həvalə etmək niyyətindədir.

***-Bir neçə gündür Rusiyanın Ukraynadakı işğalı davam edir. İtkilərdən qəzəblənən Putin dünyanı nüvə silahları ulə hədələyib. Üstəgəl, Rusiyanın nüvə qüvvələri döyüşə hazır vəziyyətə gətirib. Hdaisələrin bundan sonrakı gedişatını necə proqnozlaşdırırsınız?***



- Belə bir təhdidin Avropanın iki böyük dövlətinin müharibəsində səsləndirilməsi Amerika və başqa bir neçə güclü dövlətləri o qədər də narahat etmədi. Görünür ki, onlar bunun sadəcə blef olduğunu düşünür. Amma 1962-ci il Karib dənizindəki böhrandan sonra belə bir təhdidi ilk dəfə Rusiya səsləndirdi. Bu onu göstərir ki, Rusiya Beynəlxalq Təhlükəsizlik Arxitekturası üçün təhlükə törədən bir tərəfdir. Zamanında bunun qarşısı alınmalı idi.

***- Rusiya-Ukrayna müharibəsi fonunda Cənubi Qafqazda sülh arxitekturasının təminatı haqqında nə demək olar?***

- Dövlət heç vaxt planlaşdırılmamış addımlar atmamalıdır. Bunun nə ilə nəticələnəcəyinin Ukraynada şahidi olduq. Əlbəttə ki, biz bu müharibədə Ukraynanı dəstəkləyirik. Amma yanlış addımların nəticəsində Ukrayna kimi dünyanın dəstəklədiyi dövlət Rusiya ilə baş çıxara bilmir.

***- Ukraynada baş verənlər hansı ssenari üzrə inkişaf edə bilər?***

- Rusiyanın ilkin məqsədi Kiyevi ələ keçirmək idi. Ona görə də müharibənin ilk günlərində digər istiamətlərdə döyüşlə olsa da, əsas zərbə istiqaməti Kiyev idi. Lakin bu Kiyev məsələsi istənilən müddətdə baş tutmadı. Ona görə də əməliyyatlar davam edir və tətbiq olunan sanksiyalar artır. Rusiyanın ikinci məqsədi Ukraynanı dənizlərdən təcrid etmək, son olaraq isə Ukraynanı cilovlamaq, hakimiyyəti altına almaqdır.

***- İndi ABŞ və Rusiya arasında görünən diplomatiya yoxdur, bəs görülməyən diplomatiya?***

- ABŞ-ın kənardan bu qədər rahatlıqla bu məsələləri izləməsi onu göstərir ki, Rusiyanın Ukrayna bataqlıqlarında daha çox itki verməsi, daha çox texnikanın məhvi onun maraqlarına uyğun gəlir. Ona görə ki Rusiya onun potensial düşməni kimi zəifləyir. Həmçinin, bu Rusiyanın deyilən qədər imkanlara malik olmadığını göstərir. Eyni zamanda, bütün bunların nəticəsində ABŞ Rusiyaya qarşı asanlıqla sanksiyalar tətbiq edə bilir. Bir tək birbaşa olaraq hərbi qüvvələrdən istifadə etmir, lakin yenə də dolayısıyla dəstək verir.

***Ləman Əlizadə***

**...Yenə bu, lənətə gəlmiş nigarançılıq... Əslində, bu gün biz yenə də tərəddüd məngənəsindəyik. Deyirəm, o gün bizim bəzi başbilənlərimiz, İrəvanın Kiyev körpüsündə Rusiya Federasiyasının prezidenti Vladimir Putinə dəstək aksiyası keçirib 50 metrlik plakat asmaqda tələskənlik etməyiblər ki? Amma bu gün belə görünür ki, deyəsən İrəvan erməniləri bir az tələskənliyə yol veriblər axı...**



## "...A qadan alım, rus ayısı"... erməni ifasında

Çünki Ukraynadan gələn son xəbərlər bizim üçün elə də ürəkaaçan xəbərlərə oxşamır. Deyilənə görə, ruslar son döyüşlərdə yaman uduzurlar. Hətta Ukraynadan gələn xəbərlərdə rus döyüşçülər arasında fərariliyin də geniş yayıldığı deyilir.

Amma bütün bunlara baxmayaraq, biz hələ ki, gözləmə mövqeyindəyik. Görən, o gün BMT-nin İnsan Haqları Şurasının iclası zamanı Ukrayna məsələsinə baxılanda Ermənistanın səs verməməsini ruslar başqa yerə yozmazlar ki? Düşünürəm ki, ruslar bu məsələdə biz ermənilərdən ”əleyhinə” səs verməyimizi gözləyirdilər. Amma buna baxmayaraq, biz sivil dünyanın bizdən gözlədiyi ”lehinə” də səs vermədik. Yəni biz bununla ruslara başqalarından ”bir köynək” yaxın olduğumuzu sübut etmiş olduq. Düşünürük ki, BMT-dəki ”erməniseverlər” bizi başa düşmüş olarlar. Ona görə ki, biz ermənilər hələ ki, ruslar üçün ”...a qadan alım rus ayısı”nı oxumağa məcburuq. Çünki, buna bu günkü gündə və bəlkə də lap gələcəkdə də bizim böyük ehtiyacımız var.

Doğrudur, bu gün bəzi ermənilər Ermənistanın ən qısa zamanda Rusiyanın Ukraynadakı hərəkətlərinə qarşı olduğunu bəyan etməsini istəyirlər. Amma istəməklə deyil axı. Bu gün Ermənistandakı bütün ermənilər Ukrayna münaqişəsinin ermənilər üçün təkcə iqtisadi problem deyil, həm də siyasi çətinliklər yaratdığını yaxşı başa düşürlər. Amma yenə də bütün bunlara baxmayaraq, baş verənlərdə hər şeyi öz adıyla çağırmaqda acizik.

Çünki, bu gün Rusiya dünyanın ən ”yaramaz” ölkələrinin belə məruz qalmadığı sanksiyalar altına düçməkdədir. Ölkədəki, bir-iki erməni sahibkarlar da daxil olmaqla bütün iş adamları üçün ağır günlər başlayır. Hazırda Rusiya iqtisadiyyatın Latın Amerikası ölkələri iqtisadiyyatı səviyyəsindən də aşağı səviyyəyə düşə biləcəyi barədə də danışanlar var. Deyirəm, bu baş verərsə, bax, vay onda biz ermənilərin halına. Belə görünür ki, bu məqamda, yəni ölkədəki yoxsulluq fonunda ruslarda həmişə mövcud olan şovinist hisslər güclənə bilər və təbii ki, bunun da açısını hamıdan çox ”məzlum ermənilər” çəkmiş olacaqlar...

...Yenə də görən, İrəvandakı Kiyev körpüsünə üzərində ”Ermənistan-Rusiya” yazılmış 50 metrlik kətan plakatı daşıyıb gətirməkdə tələskənliyə yol verməmişik ki, hıy?..

***Ağasəf Babayev***



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

# Azərbaycan jurnalistindən cənab Kuznetsova...

**Axı deyəsən, həqiqətən də Azərbaycan jurnalistinin daşı yaman ağırıymış. Çünki son vaxtlar kimlərəsə əməllibaşlı diskomforluqlar yaradır Azərbaycan jurnalistinin həmin o ağır daşı. Hətta belə desək, bizim - yəni, özüm də daxil olmaqla bir çox həmkarlarımın qələmlərindən və ya klaviaturaları arasından sıçrayıb-çıxan daş ölkədaxili hüdudlardan da kənara uçur, beynəlxalq səviyyəyə qədər gedib-çatır.**

Bir ara bəzi milli deputatlarımız (adları zatən bəllidir) ”çestlərinə” dəyən hansısa jurnalist münasibəti görürdüsə dərhal hədəfə bütün ölkə jurnalistikası alınırdı. Gah biri bu boyda qələm ordusuna, eləcə də dördüncü hakimiyyətə qarşı savaş açır, gah da o biri hansısa əməlinə görə ifşa olunarkən, yeni özünü təmizə çıxarmaqdan ötrü ifadələri tükənər-tükənməz, söz qıtlığına düşən kimi dişinin dibindən çıxan təhqirlərini şappılladır düz jurnalistin üzünə! Özü də bunu edənlərin hər biri yaşlı-başlı, qalstuklu-odekalonlu, ciblərində də toxunulmazlıq kağızları olan adamlardırlar, yaxud müəyyən çevrələrdə adam hesab edilib adamlar sırasına qatızdırılanlardırlar. Bu araya daha bir fikrimi də sığışdırım ki, münasibət heç də bütün hörmətli millət vəkillərimizə aid deyil, sadəcə həmkarlarımı təhqirlərə məruz qoyanlaradır. Nə isə, açmayım köhnə sandığı və tökməyim tiftiklənmiş pambığı, keçim əlqərəzə, yeni mövzuya.

Beləliklə, Rusiya-Ukrayna münaqişəsi başlayar-başlamaz Azərbaycan cəmiyyəti öz azad düşncəsi və gəldiyi nəticələrindən çıxardığı şəxsi qənaətlərinə görə tərəflərdən birini, yaxud digərini tutudu və şəxsi düşüncəmə görə, bu məsələdə kimsə digərinə qarşı ittihamla çıxış etməməlidir. Yəni biri Rusiyanın mövqeyini haqlı sayırsa, həmin adam Ukraynanın mövqeyini haqlı sayana zorla, güclə, daha nə bilim, hansısa vasitə ilə təzyiq və ya təsir göstərməməlidir. Adamların öz fikirləri var və qoy yenə də öz fikirlərində qalsınlar, çünki cəmiyyətdə yaranan fikir ayrılıqlarının mübahisə predmetinə keçməsi həmin cəmiyyəti parçalayır. Bu isə, xüsusilə bizim cəmiyyətimiz üçün heç də xoş bir məsələ deyil. 44 günlük müharibə cəmiyyətimizi elə bir vahid hala gətirdi ki, artıq həmin vahidlik digər xalqlara örnək, nümunə kimi göstərilməkdədir.

İndi, Azərbaycan jurnalistlərinin də əksəriyyəti Rusiyanın Ukraynaya hərbi müdaxiləsini tənqid edən yazılarla çıxış etdilər, sosial şəbəkələrdəki mövqelərini sərgilədilər, informasiyalara edilən istinadlarının da əksəriyyəti Ukrayna KİV-lərinə məxsus idi, bu gü də həmin proses gedir. Ancaq Rusiya KİV-lərinə də istinadlar var. Amma biz nə gördük? Bir də gördük ki, Rusiyadan olan politoloq Oleq Kuznetsov 44 günlük Qarabağ müharibəsində Azərbaycanın haqlı, ədalətli mübarizəsinə dəstək göstərdiyini sözün həqiqi mənasında minnət qoymaqla Ukraynadan yana çıxış edən jurnalistləri hədəfə aldı. Belə yerdə yenə də daş məsələsi gəldi-düşdü yada. Daha doğrusu jurnalistin ağır daşı!

Azərbaycan media nümayəndələrini hədələyən Kuznetsov bu barədə Facebook səhifəsində yazıb və cəbhə xəbərlərininin nəyə görə Rusiya mediasından deyil, Ukrayna mənbələrindən aldıqlarını sərt tərzdə qınayıb, hədələr səsləndirib, bu da azmış kimi, həbsolunma təhdidi ilə barmaq silkələyib. Çox maraqlıdır, axı cənab Kuznetsov öz ölkəsinin mövqeyini haqlı bilirsə, nəyə görə bu qədər nigarançılıq keçirir? Yaxud, tutaq ki, Rusiya hökuməti Rusiya ordusunun hərəkətləri ilə bağlı mediada yalan məlumatların yayılmasına görə cinayət məsuliyyəti tətbiq edəcək. SUAL: Harada görünüb ki, digər ölkənin parlamentinin qəbul etdiyi qanunu başqa ölkədə yaşayan vətəndaşa qarşı tətbiq edilsin? Yaxud, deyək ki, ölkələrimiz müttəfiqdir və əslində bu müttəfiqliyin də həmin iddiaya heç bir əsası ola bilməz. Məgər istinada görə jurnalistmi həbs olunar? Hər halda biz dəmir pərdəli SSRİ dövründə yaşamırıq, küçədə 21-ci əsrin 2-ci onilliyidir və təəssüf ki, Qarabağ məsələsində ölkəmizin haqlı mövqeyini dəstəkləyən cənab Kuznetsov indi öz mövqeyini əks istiqamətə sarı dəyişməyə başlayıb. Onda belə hesab edə bilərik ki, ya Kuznetsovun bugünə qədər bizə göstərdiyi dəstəyi süni dəstək imiş, ya da o, sözünün üzərində dayana bilməyən fərddir. Bax, ona görə də bizim daşımız ağırdan da ağırdır, haraya düşürsə oranı yerləyeksan edir, Kuznetsovun daxilindəki real hisslərini üzə çıxartdığı kimi.

Yeri gəlmişkən, digər Rusiya jurnalisti və politoloqu, hətta Azərbaycanın səmimi dostu Maksim Şevçenko da bir qism azərbaycanlı jurnalistləri necə deyərlər, məzəmmət etdi. Amma sonradan tələsdiyinin fərqinə vardı və üzr istədi. Ona görə ki, onun özü də ədalətlilik prizmasından çıxış etməyin nə demək olduğunu yaxşı bilir. Misal üçün, Qarabağ mövzusunda Azərbaycan torpaqlarının erməni işğalı altında olduğunu tarixi faktlarına qədər bilən Şevçenko çox yəqin ki, bir həqiqəti anladı - Rusiya-Ukrayna münaqişəsində kimin haqsız, kimin isə haqlı olmasını. Ona görə də, məzəmmətli fikrini üzrxahlıqla, hətta belə desək, centlmenliklə əvəzlədi.

Amma Kuznetsovdan bunu görmədik. Görmədik və əsla da onun təhdidlərinə etina da etmədik, bu gün də etmirik. Özümüz nə qədər çoxuqsa, elə daşımız da bir o qədər çoxdur və ağırdır. Əgər ki, qələmimiz silahdırsa, daşımız da qalxanımızdır!

# Qida təhlükəsizliyi:
# Nə yeyirik, necə qorunuruq, hara gedirik?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Son zamanlar aktual məsələlərdən biri də ölkəyə biotəhlükəli malların idxalı və bunun nəticəsində əhalinin sağlamlığının təhlükə altına salınmasıdır. Ölkə daxilində də əhalinin sağlamlığı üçün təhlükəli məhsullar istehsal edən və satanlar var. Aparılan reydlər və yoxlamalar zamanı belə halların aşkar olunması göstərir ki, bu sahədə həll olunması vacib çox məsələlər var.**

## Ərzaq təhlükəsizliyi və milli genefond

Gen mühəndisliyinin inkişafı artıq təhlükəli qlobal tendensiyalara təkan verib. Transgen- yəni geni dəyişdirilmiş ərzaq məhsulları ilə qidalanma bəşəriyyət üçün xeyli təhlükəli problemlər yaradır. Transgen məhsulların yaradılması zamanı uyğun olmayan genləri də birləşdirmək olur. Belə ki, bir gen heyvanat, digəri isə bitki aləmindən götürülür və tədricən bu məhsullarla qidalanan insanların genetik kodlarında ciddi dəyişikliklər baş verir. Bu məhsullar gen strukturunu dağıtmağa, genofondu darmadağın etməyə qadirdir. Getdikcə bütün dünyada olduğu kimi ölkəmizdə də belə məhsulların istehsalı və satışı artır.




Hazırda bir çox transmilli şirkətlər dünya ölkələrində genetik səviyyədə modifikasiyalara uğramış kənd təsərrüfatı və ərzaq məhsullarının satışını durmadan artırır. Əgər ekoloji cəhətdən təmiz və ya normal şəraitdə yetişdirilən, kənd təsərrüfatı məhsullarını saxlama müddəti çox az olursa, GMO məhsullarda bu müddət uzundur. Bu da həmin məhsulların uzaq ölkələrə ixrac olunmasına şərait yaradır.

Sirr deyil ki, istənilən kənd təsərrüfatı məhsulunu genetik modifikasiyaya uğratmaqla məhsuldarlığı yüksəltmək mümkündür. Çünki geni dəyişdirilmiş toxumlar istənilən təbii şəraitə, bakteriyalara, viruslara qarşı dözümlü olurlar. Üstəlik, onlarda məhsuldarlıq yuxarı olur, bioloji dəyəri xeyli aşağı olsa da. Bu səbəbdən belə məhsulları əkib-becərməyə maraq artır.

GMO-nun bu üstünlüyü təbii sortların məhvinə səbəb olur. Təbii toxumlar getdikcə sıradan çıxır. GMO məhsullar reproduksiya vermir, yəni ondan toxum götürmək mümkün deyil. Nəticədə, yerli təbii toxum fondu sıradan çıxmış ölkələr GMO toxumlar istehsal edib dünyaya yayan transmilli şirkətlərdən asılı vəziyyətə düşür. Bu isə təkcə ərzaq təhlükəsizliyi üçün deyil, həm də dövlət təhlükəsizliyi üçün də çox ciddi təhlükədir.

## Bazar-dükanda üstünlüyü GMO ələ alıb

Müşahidələr və monitorinqlərin nəticələri göstərir ki, son vaxtlar Azərbaycanda genetik səviyyədə dəyişikliklərə məruz qalmış məhsulların satışı durmadan artır. İndi ölkə bazarlarında belə ərzaq məhsulları çoxluq təşkil edir. Məsələn, bazarlarda geni dəyişdirilmiş xeyli meyvə-tərəvəz satılır ki, onlar zahirən təbii sortlardan elə də fərqlənmir. Marketlərdə vəziyyət bundan da pisdir.

Son vaxtlar ölkənin ticarət və istehsal sektorunda aparılan yoxlamalar nəticəsində çox sayda saxta və təhlükəli qida məhsulları aşkar olunur. Bu məhsullar sırasına gündəlik tələbat malları kateqoriyasına daxil olan ərzaq məmulatları daxildir. Lakin aşkar olunanlar real məhsulların heç 1 faizini də təşkil etmir.

Ekspertlər bildirir ki, meyvə-tərəvəzlərin, paxlalıların, konservləşdirilmiş məhsulların, əksər emal məhsullarının, içkilərin böyük əksəriyyəti geni dəyişdirilmiş məhsullardan hazırlanır.

Bazarların piştaxtalarını və marketlərin



rəflərini dolduran hamısı eyni formada, az qala eyni çəkidə olan, par-par yanan meyvələri xüsusi kimyəvi preparatlar vasitəsilə yetişdirirlər və onlar uzun müddət açıq havada saxlananda da xarab olmur.

Artıq şəhərlərdə təbii məhsul tapmaq müşkülə çevrilib. Məsələn, təbii yerli kartof sortları demək olar ki, yoxa çıxıb, yeni xaricdən gətirilən böyük ölçüdə olan texniki kartof tutub. Pomidor pomidor dadı vermir, soğan acı dadmır və s.

## Mələk donunda görünən şeytan

Xarici görünüşü gözəl olan bu məhsulların zahiri gözəlliyi arxasında dəhşətli və təhlükəli xəstəliklər dayanır. Belə "qida" məhsullarının hamısı potensial zəhərdir. Əgər adi zəhər insanı ən uzağı bir neçə saat ərzində öldürürsə, bu cür "qida" məhsulları orqanizmi tədricən, uzun illər boyu sıradan çıxarır və məhv edir.

Təbii məhsullardan zəhərlənmə zamanı tibb elmi insanların köməyinə çatır. Lakin transgen məhsulların ətraf mühitə, insan orqanizminə və gələcək nəsillərə göstərdiyi nəticələrin aradan qaldırılması isə mümkün olmayacaq.

Ən təhlükəlisi isə budur ki, GMO məhsullar insanın genetik strukturunda ciddi dəyisikliklərə səbəb olur. Transgen ərzaqla qidalanan adamın övladlarında dəyişikliklər təhlükəli, nəvələrində isə faciəli formada olur. Hazırda belə məhsullardan istifadə o qədər geniş hal alıb ki, bəzi insanlarda artıq ilkin mutasiyalar muşahidə olunur.

GMO əkinlər torpaq fonduna da çox ciddi zərər vurur. Onların əkildiyi yerdə torpaq qüvvədən düşür, mineral və bioloji tərkibini itirir, sonra orda başqa təbii məhsulları əkmək olmur. Təsadüfi deyil ki, hazırda bir sıra ölkələr bu məhsulların istehsalı, idxalı və satışına qadağa qoyub.

Bəzən bu məhsulları GMO deyil hibrid adı ilə qələmə verməyə çalışırlar ki, burada da hiylə var. Çünki təbii fitrətinə müdaxilə olunmuş, gen strukturu və bioloji tərkibi dəyişdirilmiş hər şey GMO-dur. Köhnə vaxtlarla edilən calaq prosesi ilə bunu qarışdırmaq lazım deyil. Bunlar tamam fərqli şeylərdir. Calaqla məsələn 5 metr hündürlükdə, salxım formasında məhsul verən pomidor ağacları almaq mümkün deyil, üzüm salxımı kimi meyvə gətirən qoz ağacı almaq mümkün deyil, o meyvə təvəvəzin aylarla formasını itirmədən durması mümkün deyil.

## Qida sənayesində kimya elminin "nailiyyətləri"

Problem təkcə GMO məhsullarla da bağlı deyil. Kimya sənayesinin inkişafı vəziyyəti daha da pisləşdirib. Daha ucuz başa gələn kimya sənayesinin hesabına qida məhsullarında təbii elementlər sünilərlə əvəzlənir- müxtəlif tozlar, rəngarəng ekstraktlar, süni kimyəvi tərkibli mayelər və s.

Əhalimizin ucuz ərzaq məhsullarına olan ehtiyaclarından istifadə edib varlanmaq istəyən isbazlarımız bu cür məhsulları ölkəmizə gətirirlər. Bu gün alıcılara quru süddən və kimyəvi marqarindən hazırlanmış "təbii süd məhsulları", süni kimyəvi kompanentlərdən hazırlanmış "təbii meyvə şirələri", texniki spirtdən və kimyəvi qarışıqlardan hazırlanmış alkoqollu içkilər, mənşəyi məlum olmayan ətdən hazırlanmış kolbasalar və s. bu kimi təhlükəli qida məmulatları sırınmaqda davam edir.

Reklamlarda tərifi göylərə qaldırılan ərzaq məhsullarının "təbii dadı və iyi"nin kumyəvi üsullarla əldə edilməsi artıq heç kimə sirr deyil. Ət və süd məmulatlarının, şokoladın, şirniyyatların, mayonezin, limonad və şirələrin, bitki yağlarının, ümumiyyətlə əksər emal sənayesi məhsullarının tərkibinə bol-bol kimyəvi kompanentlər əlavə edilir.



Dünyada yetişdirilən soya bitkisinin təqribən 80 faizi transgen yolla becərilir. Soya yağı və unu ölkəmizə hazır vəziyyətdə gətirilir və məhsulların tərkibinə vurulur. Belə məhsulların tərkibində istifadəsi qadağan edilmiş aspartan- şəkər əvəzedicisi olan kimyəvi maddə var.

Ölkəmizə ildə təxminən 50-60 min ton civarında palma yağı idxal olunur ki, bu özünü mağazalarda "təbii kərə yağı" şəklində göstərir. Üstəlik bitki yağlarının da təbii olmadığı məlumdur.

## Sağlamlıq üçün gecpartlayan bomba

Biz əgər belə məhsulları yeyən kimi ölmürüksə, bu, o demək deyil ki, o, bizə təsir etmir. Aparılan çoxsaylı elmi təcrübələrdən çıxan nəticə belədir ki, geni dəyişdirilmiş məhsullar insan orqanizminə olduqca zərərlidir və öz əsl təsirini bir müddət sonra büruzə verir. Dünyada xərçəng xəstəliyinin kəskin artmasında bu məhsulların əvəzedilməz rolu vardır.

Ekspertlərin araşdırmaları göstərir ki, yeni yaranan təhlükəli xəstəliklərin və müalicəsi mümkün olmayan bir çox xəstəliklərin əsas səbəbi də məhz elə transgen qidalanma ilə bağlıdır. Belə ki, orqanizm kifayət qədər çox qida ilə təmin edilməsinə baxmayaraq, gizli aclıq, yəni bədənə lazım olan üzvi maddələr, minerallar, yağlar, duzlar, vitaminlərin olmaması problemi ilə qarşılaşır. Və insanlar çox yeməyə başlayır, çünki orqanizm lazımi maddələri ala bilmir və süni aclıq baş verir.

Təbii qida maddələrinin müxtəlif kimyəvi tərkiblərlə emalı nəticəsində isə faydalı maddələr itib-batır. Orqanizm isə həmin vitaminləri hormonal qidalardan, konservlərdən, tozlardan və emal olunmuş başqa tərkiblərdən ala bilmir və gizli aclıq başlayır. Nəticədə, piylənmə, mədə-bağırsaq, ürək-qan-damar xəstəlikləri, şəkər, xərçəng sürətlə gəncləşir və inkişaf edir.

## Qanunlar qadağan edir, amma...

Azərbaycanda müxtəlif qanunlarla GMO məhsulların idxalı, istehsalı və satışı qadağan edilsə də, bu məhsulların növləri və bazarda tutduğu həcmi sürətlə artmaqda davam edir. Paralel olaraq ürək-qan damar, mədə-bağırsaq, xərçəng və s. xəstəliklərə tutulanların sayı sürətlə artır, həmçinin, həzmetmə, əsəb, hormonal, immun sistemi zəifləmiş uşaqlar dünyaya gətirilir. Son tədqiqatlara görə, yeni doğulanların azı 30 faizi genetik fəsadlara malikdir.

Transgen məhsulların genis istifadəsi təkcə fiziki problemlər yaratmır, həm də insanların psixologiyasına və süuruna mənfi təsir göstərir. Ən dəhşətlisi də elə budur. Çünki fiziki xəstəlikləri birtəhər müalicə etmək olur. Amma normal süurun və psixologiyanın pozulmasına qarşı tibb elmi acizdir.

Deyilənləri nəzərə aldıqda, bu sahədə müvafiq dövlət orqanlarının, həmçinin qeyri-hökumət təşkilatlarının və medianın üzərinə böyük məsuliyyət düşür. Əhali arasında təbii məhsullarla qidalanmağın həyati əhəmiyyətli olduğu haqda geniş maarifləndirmə işləri aparılmalıdır, zərərli məhsulların istehsalı və satışına görə cəzalar daha da sərtləşdirilməlidir.

*Elçin Bayramlı*

SON SƏHİFƏ
Səs
6 mart
2022-ci il

# İslamda
## cinsi azlıq nümayəndələrinə necə baxılır



“Hər şeydən öncə bunu deməyi məqsədəuyğun hesab edirəm ki, İslam dinində əsasən bağışlanmayan yeganə günah Allaha şərik qoşmaqdır. Hətta bu günah belə tövbə ilə bağışlanır. Yəni tövbə qapısı son nəfəsə qədər açıqdır. Lakin İslam dini hüquq sistemindən sui-istifadə edənlər üçün bazar olacaq bir din deyil. Odur ki, ictimai asayişin həm maddi, həm də mənəvi baxımdan qorunması üçün kifayət qədər sərt, eyni zamanda məntiqi qanunlar və cəza mexanizmi təyin etmişdir”. Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib.

Onun sözlərinə görə, cinsi cinayət törətmiş şəxslər İslam dininə əsasən cəmiyyətin əsas sütunu olan ailə təşkilatını təhlükəyə atdığı üçün arzuolunmaz sayılırlar: ”Xüsusilə cinsi azlıq kimi ”müasir” və ”xoşagələn” bir ad almış əxlaqsız insanlar üçün ən sərt cəzalar təyin edilmişdir. Lakın İslam hüquq sistemində cinsi cinayəti sübuta yetirmək o qədər çətindir ki, adam az qalır desin ki, İslama görə cinsi cinayət törətmiş şəxslərin cəzalanması qeyri-mümkünə yaxındır. Bunun səbəbi isə bu müqəddəs dinin insan kəramətinə, heysiyyətinə, bu kimi dəyərlərin qorunmasına çox həssas yanaşmasıdır”.

Mircəfər Əyyubov sözlərinə belə davam edib: ”İslama görə heç kəs rüsvay olmamalı, əksi sübut olunmayınca hamının ehtiramı qorunmalıdır. Digər tərəfdən isə günahların reklam edilməməsi İslamın qırmızı xəttidir. Elə ona görədir ki, bütün cinayətləri sübut etmək üçün iki ədalətli şahid kifayət etdiyi halda, cinsi cinayətlərin sübut edilməsi üçün dörd ədalətli şahidin olması və onların cinayəti bütün incəliklərinə qədər görməsi şərtdir. Bildiyimiz kimi bu da çox nadir hallarda mümkündür. İslam əsasən insanların vicdan oyanışını və tövbəsini önəmli hesab edir. Təəssüf ki, günümüzdə modern cəhalət sisteminin cinsi azlıqlara dəlicəsinə verdiyi dəstək nəticəsində bu cinayəti törədən şəxslər tövbə etmək yerinə özlərini haqlı hesab edir, əksinə söz deyənlər cani hesab olunur”.

*Ayşən Vəli*

# “Barselona” 100 milyon avroya 18 yaşlı futbolçu transfer etdi



**“Barselona” heyətini yeni futbolçu ilə gücləndirib. Bu barədə Kataloniya klubunun mətbuat xidməti məlumat yayıb. İspaniya təmsilçisi ”Rasinq”dən Pablo Torre ilə 5 illik müqavilə üçün razılaşıb. La Liqa klubu bu keçidə görə qarşı tərəfə 100 milyon avro ödəyəcək. 18 yaşlı yarımmüdafiəçi isə yeni komandasında illik 5 milyon avro məvacib alacaq.**

Torre bu mövsümün sonunadək ”Rasinq”də çıxış edəcək. O, ”Barselona”ya gəldikdən sonra əvvəlcə klubun ikinci komandasında oynayacaq.

# İlk dəfə açıqlandı: Enerji içkiləri bu ölümcül xəstəliklərə yol açır!



İlk dəfə ötən əsrin 20-ci illərinin axırlarında xəstəxanada dərman kimi qəbul edilən enerji içkilərindən zaman keçdikcə məişətdə də istifadə olunmağa başlanılıb. Ötən əsrin 60-cı illərindən satılmağa başlayan həmin içki qısa müddət ərzində böyük marağa səbəb olub. Kimi onu öz enerjisini yüksəltmək, kimi də dadını bəyənərək onu qəbul edib. Avropada böyük satış bazarına sahib olan enerji içkilərinin fəsadları zaman keçdikcə ciddi müzakirə mövzusuna çevrilib.

Araşdırmalar göstərir ki, enerji içkilərindən istifadə xüsusilə də azyaşlılar arasında sağalması mümkün olmayan fəsadlara aparıb çıxarır. Həmin içkiyə qarşı artan maraq o yerə çatıb ki, hətta onun qəbulu nəticəsində həyatını itirənlər də olur.

AZƏRTAC xəbər verir ki, həkim-terapevt Nahid Məhərrəmov deyib: ”Gənc yaşında öd kisəsində, qaraciyərində narahatlığı, mədəsində eroziyası, onikibarmaq bağırsağında yarası olan xəstələrlə rastlaşırıq. Analiz və araşdırma zamanı həmin halın mənşəyi məlum olmayan enerji içkisinin qəbulu nəticəsində yarandığı məlum olub”.

Ümumiyyətlə, energetik içkilərdən 18 yaşına çatmamış yeniyetmələrin, hamilə qadınların, süd verən anaların, ürək-damar, psixonevroloji, böyrək və qaraciyər xəstəliklərindən əziyyət çəkənlərin istifadə etməməsi tövsiyə olunur. Həmin içkilərin istehsalında istifadə olunan kofein, şəkər, rəngləyici qida əlavələri və s. maddələr orqanizmə zərərli təsir edir. Mənşəyi bilinməyən həmin məhsullar zaman keçdikcə geri dönüşü olmayan fəsadlara səbəb olur.

# Həkim açıqladı: “Ayaq sağlamlığı ayaqqabı seçimindən çox asılıdır”

**Çox vaxt ayaqqabı almaq üçün seçim edərkən onun keyfiyyət və rahatlığından daha çox görünüşünə fikir verirlər. Lakin ayaqqabı mütləq ayağa uyğunlaşmalı, uzunluğu və eni mütənasib olmalıdır. Yanlış ayaqqabı seçimi ayaqda deformasiyaya səbəb olmaqla yanaşı, bel və onurğaya da mənfi təsir göstərir.**

Ortopedlər təbii dəridən hazırlanan ayaqqabılardan istifadə etməyi tövsiyə edirlər. Süni və sintetik materiallarda məsamələr olmadığından ayaqda xoşagəlməz qoxu yaranır.

Bu barədə danışan həkim-ortoped Ramin Rzayev qeyd edib ki, seçim edərkən, ilk növbədə, ayaqqabının pəncə ölçüsünə uyğun olmasına fikir vermək lazımdır: ”Ayaqqabı nə çox hündürdaban, nə də dabansız olmamalıdır. Orta dabanlı ayaqqabılara üstünlük verilməlidir. Seçim zamanı ayaqqabıların ortopedik, həm üst, həm alt materialına görə elastik, materialı dəridən nəm çəkə bilən olmasına diqqət yetirmək lazımdır. Ayaqqabı içliyinin, yeni tərliyin pəncə altına uyğun olaraq ortopedik olması məsləhət görülür”.



Ayaqqabının elastik və yumşaq altlıqlı olması çox vacibdir. Xanımların dikdaban ayaqqabılardan gündəlik istifadəsi də məsləhət deyil, çünki həmin ayaqqabı bədənin bütün ağırlıq mərkəzini qabağa çəkir. Onurğa, bel, kürək nayihələrindəki əzələlər yüklənir və gərginləşir: ”Pəncənin altında, xüsusən barmaqlarda dəri döyənəklərin yaranması və hətta bəzən xüsusən qadınlarda uzun müddət hündürdaban, barmaq və pəncələri sıxışdıran ayaqqabılar geyindikdə barmaq və pəncədə müəyyən deformasiyalar yaranmasına səbəb olur. Nadir hallarda isə barmaqlara gedən sinirlərdə törəmələrin yaranması və kəskin ağrılara aparıb çıxarır”, - deyə həkim-ortoped bildirib.

Bundan başqa düzgün seçilməyən ayaqqabı dəridə səpgi və göbələklərin yaranmasına da səbəb ola bilər. Mərkəzi Gömrük Hospitalının həkim-dermatoloqu Sevinc Kərimova deyib: ”Ayaqqabı sintetik materialdandırsa, pambıq corablar geyinmək daha yaxşıdır, çünki ayaqlar aşırı dərəcədə tərlədikdə kontakt dermatiti, hiperhidroz deyilən xəstəlik nəticəsində qaşınan səpgilər və barmaq arasında tərin tərkibindəki duzların qıcıqlandırması nəticəsində bişmeçələr, barmaqarası göbələyə qədər ağırlaşmalar müşahidə oluna bilər”. Sağlamlıq hər şeydən üstündür. Ona görə də ayaqqabı alarkən onun yaraşığına yox, hərəkət edərkən ayağa nə qədər rahat olmasına fikir vermək lazımdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**